*Təhsil millətin gələcəyidir!*
*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

18 iyul 2026-cı il №26 (9179) www.muallim.edu.az muallim@media.edu.az

**Prezident İlham Əliyev iyulun 13-də Şuşada keçirilən "Sülhün təşviqində medianın missiyası: Həqiqətin bərpası və etimadın yenidən qurulması" mövzusunda IV Şuşa Qlobal Media Forumunun açılış mərasimində iştirak edib**

# QARABAĞIN BƏRPASINA VERDİYİNİZ TÖHFƏYƏ GÖRƏ SİZƏ BİR DAHA TƏŞƏKKÜRÜMÜ BİLDİRMƏK İSTƏYİRƏM





### Prezident İlham Əliyev

Bu gün Slovakiya-Azərbaycan siyasi əlaqələri çox yüksək səviyyədədir və qarşılıqlı səfərlər bunu əyani şəkildə göstərir. 2024-cü ildə biz strateji tərəfdaşlığa dair Birgə Bəyannamə imzalamışıq və bəyannamənin icrası göz önündədir. Çünki belə fəal siyasi təmaslar və birgə layihələrin icra olunması, əlbəttə ki, güclü siyasi iradə tələb edir. Biz çox şadıq ki, Slovakiya Qarabağın bərpasında fəal iştirak edir və biz bu gün cənab Prezidentlə birlikdə Ağdam rayonunun Baş Qərvənd kəndinə gedəcəyik. Orada Slovakiya şirkəti "Ağıllı kənd" layihəsini icra edir və bu layihə ilə tanış olacağıq. Bu dəstəyə və Qarabağın bərpasına verdiyiniz töhfəyə görə Sizə bir daha təşəkkürümü bildirmək istəyirəm.

### Prezident Peter Pelleqrini

Cənab Prezident, mən çox məmnunam ki, bu gün günorta biz yenicə tikilmiş kəndi ziyarət edəcəyik. Mən, həmçinin səmimi minnətdarlığımı bildirmək istərdim ki, bu kənddə yaşayacaq uşaqlar üçün məktəb və ətraf sahə görkəmli tarixi şəxsiyyət, slovak generalı Milan Rastislav Ştefanikin adını daşıyacaq. Beləliklə, Slovakiyanın irsi uzun müddət burada, Qarabağda olacaq və həmin məktəbə gedəcək bütün uşaqların, valideynlərin və müəllimlərin, həmçinin Slovakiyaya bağlılığı olacaq. Biz şadıq ki, Slovakiya ilə Azərbaycan arasında münasibətlər iqtisadiyyatın və diplomatiyanın hüdudlarını keçir.

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrini iyulun 14-də Şuşada mətbuata bəyanatlarla çıxış ediblər*

## Prezidentlər Ağdamda Baş Qərvənd kənd tam orta məktəbinin təməlini qoyublar

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ölkəmizdə rəsmi səfərdə olan Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrini iyulun 14-də Ağdam rayonunun Baş Qərvənd kəndində görülən işlərlə tanış olub, Milan Rastislav Ştefanik adına 840 şagird yerlik Baş Qərvənd kənd tam orta məktəb binasının təməlini qoyublar.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan və Slovakiya prezidentlərinə Milan Rastislav Ştefanik adına 840 şagird yerlik Baş Qərvənd kənd tam orta məktəbi barədə də məlumat verildi.

Bildirildi ki, məktəbin ərazisi 3 hektardır. Binada ümumilikdə 35 sinif, texnologiya, hərbi hazırlıq, kompüter otaqları, kitabxana, fizika, biologiya və kimya laboratoriyaları yaradılacaq.

Burada, eyni zamanda, akt və idman zalları, bufet və digər zəruri tədris infrastrukturu olacaq.

Binanın elektrik təchizatını təmin etmək üçün Günəş panellərinin quraşdırılması nəzərdə tutulur.

Məktəbin ərazisində həm şagirdlər, həm də sakinlər üçün qaçış zolağı olan geniş idman meydançası, oyun və istirahət sahələri yaradılacaq, yaşıllıq zolaqları salınacaq.

Azərbaycan və Slovakiya prezidentləri məktəbin təməlini qoydular.

Qeyd edək ki, Baş Qərvənd kəndinin inşasında Slovakiya şirkətləri iştirak edirlər. Kənddə inşa olunacaq məktəb isə Slovakiya tərəfindən Azərbaycana hədiyyə olunur.

MİQ:

## Uğur qazananların ünvanı

Müəllim peşəsinə aparan yol artıq uzun illərdir ki, vahid qaydalarla müəyyənləşir. Son on ildə müəllimlərin işə qəbulu (MİQ) mərkəzləşdirilmiş qaydada həyata keçirilir. Müəllimlərin işə qəbulu müsabiqəsi təhsilverənlərin bilik və bacarıqlarının obyektiv qiymətləndirilməsini təmin edir. Təsadüfi deyil ki, son on ildə MİQ yolu ilə işə qəbul olunan müəllimlərin 99,8 faizi sertifikatlaşdırma prosesindən uğurla keçib, onların təxminən 80 faizi isə yüksək nəticə göstərib. Bu il müəllimlərin işə qəbulu üzrə müsabiqənin iyulun 14-dən başlayan test imtahanları iyulun 18-dək davam edəcək. İmtahanlar ölkənin 19 şəhərində yerləşən 38 imtahan mərkəzində keçirilir. Biz də paytaxt məktəblərində təşkil olunan həmin mərkəzlərdən birində imtahandan çıxan namizədlərlə söhbətləşdik.

Bax səh.4

## 20 ilin ən yüksək göstəricisi




Azərbaycan məktəbliləri Beynəlxalq Fizika Olimpiadasında son 20 ilin ən yüksək nəticəsini əldə ediblər




Bax səh.2

### Qarabağ Universiteti: inkişafın yeni mərhələsi

Bax səh.3

### Bakıdan başlanan yolun Qarabağ zirvəsi

Bax səh.5

### Naxçıvanda təhsil alan türkiyəli tələbələr

Bax səh.6

### "İlk yarışda medal qazandım"

Bax səh.8

# Nazir müavini Azərbaycan və Özbəkistan arasında əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 15-ci iclasında iştirak edib








**Elm və təhsil nazirinin müavini Firudin Qurbanov Daşkənd şəhərində keçirilən Azərbaycan və Özbəkistan arasında əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 15-ci iclasında iştirak edib.**

Nazir müavini çıxışı zamanı Azərbaycan ilə Özbəkistan arasında elm və təhsil sahəsində mövcud əməkdaşlıq və gələcəkdə icrası nəzərdə tutulan təşəbbüslər barədə məlumat verib. Xüsusilə məktəbəqədər və ümumi təhsil, STEAM əsaslı təhsil, elm və ali təhsil sahələrində həyata keçirilən birgə layihələr, tələbə və akademik heyətin mübadiləsi, birgə elmi fondun yaradılması imkanları, eləcə də özbək və Azərbaycan dillərinin qarşılıqlı tədrisi kimi bir sıra məsələlərə toxunub.

İclas çərçivəsində Azərbaycan və Özbəkistan arasında ticarət-iqtisadi, enerji, nəqliyyat, kənd təsərrüfatı, humanitar və digər istiqamətlər üzrə əməkdaşlığın mövcud vəziyyəti, eləcə də inkişaf perspektivləri müzakirə olunub.

Yekunda komissiyanın həmsədrləri tərəfindən iclasın nəticələrinə dair protokol imzalanıb.

# Ali təhsil rəqabətqabiliyyətli insan kapitalının formalaşdırılmasında mühüm rol oynayır

## Nazir müavini İdris İsayev Bakı Ali Neft Məktəbinin 10-cu "Məzun Günü" tədbirində iştirak edib









**Bakı Ali Neft Məktəbinin (BANM) 10-cu "Məzun Günü" tədbiri keçirilib.**

Tədbirdə Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov çıxış edərək məzunları təbrik edib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb. Rektor bildirib ki, BANM-də təhsil aldıqları müddətdə yüksək bilik və bacarıqlara yiyələnən məzunlar peşəkar mütəxəssis kimi əmək bazarına qədəm qoyurlar. O, builki məzunların bir qisminin artıq əmək fəaliyyətinə başladığını, digər qisminin isə dünyanın nüfuzlu ali təhsil müəssisələrinə qəbul olaraq təqaüdlər qazandığını vurğulayıb.

Tədbirdə iştirak edən elm və təhsil nazirinin müavini İdris İsayev ali təhsilin ölkənin inkişafında və rəqabətqabiliyyətli insan kapitalının formalaşdırılmasında mühüm rol oynadığını diqqətə çatdırıb, BANM məzunlarının qazandıqları bilik və bacarıqlarla Azərbaycanın inkişafına mühüm töhfələr verəcəklərinə əminliyini ifadə edib. Nazir müavini çıxışının sonunda məzunları təbrik edərək onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

SOCAR-ın vitse-prezidenti Ziba Mustafayeva çıxışında BANM məzunlarının uğurlarının ali məktəbin fəaliyyətə başladığı gündən peşəkar kadr hazırlığı missiyasını uğurla yerinə yetirdiyini bir daha təsdiqlədiyini bildirib.

Daha sonra 2026-cı il məzun buraxılışı üzrə BANM-in "İlin tələbəsi", İnformasiya təhlükəsizliyi ixtisasının məzunu Gülay Nəzərovanın adı Fəxri kötüyə həkk olunub, məzunlara diplomlar təqdim edilib.

Qeyd edək ki, bu il Bakı Ali Neft Məktəbini bakalavriat və magistratura səviyyələri üzrə ümumilikdə 407 tələbə bitirib. Məzunlar arasında Biznesin idarə edilməsi və Kompüter mühəndisliyi ixtisasları, həmçinin Özbəkistanın ali təhsil müəssisələri ilə ikili diplom proqramı üzrə ilk məzunlar, eləcə də 7 ölkədən 23 əcnəbi tələbə yer alıb.

# "Azərbaycan Mədəniyyəti – 2040" Konsepsiyasının icrası çərçivəsində Elm və Təhsil Nazirliyi ilə Mədəniyyət Nazirliyi arasında görüş

**Elm və Təhsil Nazirliyi ilə Mədəniyyət Nazirliyi arasında "Azərbaycan Mədəniyyəti — 2040" Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyasının icrası ilə bağlı görüş keçirilib.**



Görüşdə elm və təhsil nazirinin müavini Həsən Həsənli, mədəniyyət nazirinin müavini Səadət Yusifova və hər iki nazirliyin aidiyyəti struktur bölmələrinin nümayəndələri iştirak ediblər.

Müzakirələr zamanı Konsepsiyanın 2026-2030-cu illər üzrə Tədbirlər Planında mədəniyyət, elm və təhsil sahələri üzrə qarşılıqlı əməkdaşlığı əhatə edən tədbirlərin icra vəziyyəti nəzərdən keçirilib, həmin tədbirlər üzrə qurumlararası əlaqələndirmə və icra prosesinin səmərəli təşkili məsələlərinə toxunulub.

2026-cı il üzrə nəzərdə tutulan tədbirlər çərçivəsində mədəniyyətin təhsilin tərkib hissəsinə çevrilməsi, elmin və mədəniyyətin qarşılıqlı əlaqəsinin təmin edilməsi, mədəniyyət sahəsində təhsilin, təhsil pillələri üzrə ixtisasların və ixtisaslaşmaların təkmilləşdirilməsi, eləcə də Azərbaycan dili və ədəbiyyatı istiqaməti üzrə yeni, xüsusilə elmi və publisistik əsərlərin yaradılması və təbliği ilə bağlı məsələlər barədə fikir mübadiləsi aparılıb.

Görüşün sonunda aidiyyəti istiqamətlər üzrə növbəti addımlar müzakirə olunub, Konsepsiyada müəyyən edilmiş hədəflərə nail olunmasında qarşılıqlı fəaliyyətin əhəmiyyəti vurğulanıb.

# UNESCO-da Elmlərin Dayanıqlı İnkişaf üzrə Qlobal Konfrans keçirilib



**15-17 iyul tarixlərində UNESCO-nun Parisdə yerləşən mənzil-qərargahında Elmlərin Dayanıqlı İnkişaf üzrə Beynəlxalq Onilliyinin (IDSSD) 2026-cı il Qlobal Konfransı keçirilib. "Elm fəaliyyətdə: hamı üçün dayanıqlı və ədalətli gələcəyin müəyyənləşdirilməsi" mövzusuna həsr olunan konfransda Elm və Təhsil Nazirliyinin Elm, ali və peşə təhsili şöbəsinin müdiri Turxan Süleyman iştirak edib.**

UNESCO-ya üzv dövlətlərin hökumət nümayəndələrini, beynəlxalq elmi qurumları, akademik institutları, özəl sektoru və vətəndaş cəmiyyəti təşkilatlarının nümayəndələrini bir araya gətirən konfrans dayanıqlı inkişaf naminə elmin rolunun daha da gücləndirilməsi və beynəlxalq elmi əməkdaşlığın genişləndirilməsi istiqamətində mühüm platforma rolunu oynayır.

Konfrans UNESCO-nun baş direktorunun, yüksək səviyyəli hökumət nümayəndələrinin və beynəlxalq elm ictimaiyyətinin tanınmış simalarının iştirakı ilə keçirilən açılış mərasimi ilə öz işinə başlayıb. Açılış çıxışlarında Elmlərin Dayanıqlı İnkişaf üzrə Beynəlxalq Onilliyinin həyata keçirilməsi çərçivəsində əldə olunan əsas nailiyyətlər təqdim edilib, elmin qlobal problemlərin həllində həlledici rolu vurğulanıb və beynəlxalq həmrəyliyin daha da gücləndirilməsinin əhəmiyyəti qeyd olunub.

"2030-dan sonra elm: növbəti inkişaf mərhələsinin müəyyənləşdirilməsi", "Diaqnozdan fəaliyyətə: elmi prioritetlərin müəyyənləşdirilməsi" mövzularında keçirilən plenar iclaslarda uzunmüddətli qlobal çağırışlar, Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması baxımından mövcud elmi boşluqlar, süni intellekt texnologiyalarının yaratdığı imkanlar və yeni texnologiyaların idarə olunması yolları ətrafında geniş fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, konfransın yekun plenar iclasında üç gün ərzində keçirilmiş müzakirələrin əsas nəticələri ümumiləşdirilib və Elmlərin Dayanıqlı İnkişaf üzrə Beynəlxalq Onilliyinin növbəti mərhələsi üçün prioritet fəaliyyət istiqamətləri müəyyənləşdirilib.

# "Peşə təhsili üzrə ixtisasların Təsnifatı"nın yenilənməsi ilə bağlı görüş

**Elm və Təhsil Nazirliyinin təşkilatçılığı ilə Azərbaycan Texniki Universitetində "Peşə təhsili üzrə ixtisasların Təsnifatı"nın yenilənməsi ilə bağlı peşə təhsili müəssisələrinin rəhbərləri və aidiyyəti əməkdaşlarının iştirakı ilə görüş keçirilib.**

Tədbirdə çıxış edən Elm və Təhsil Nazirliyinin Elm, ali və peşə təhsili şöbəsinin müdiri Turxan Süleyman peşə təhsili sistemində həyata keçirilən islahatlar çərçivəsində ixtisasların təsnifatının yenilənməsinin əhəmiyyətindən bəhs edib. Bildirilib ki, bu istiqamətdə aparılan işlər əmək bazarının mövcud və perspektiv ehtiyaclarına uyğun kadr hazırlığının təmin edilməsinə, təhsil proqramlarının təkmilləşdirilməsinə və peşə təhsilinin keyfiyyətinin daha da artırılmasına xidmət edir. Qeyd olunub ki, məqsəd ixtisasların sayının azaldılması deyil, onların optimallaşdırılması və yeni ixtisasların yaradılmasıdır.

Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktoru İlqar Bayramlı isə bildirib ki, yeni ixtisas təsnifatı beynəlxalq təcrübə, iqtisadiyyatın prioritet istiqamətləri və əmək bazarının tələbləri nəzərə alınmaqla hazırlanır. O vurğulayıb ki, təsnifat peşə təhsilinin gələcək inkişaf istiqamətlərini və əmək bazarının ehtiyaclarına uyğun mütəxəssis hazırlığını müəyyən edən mühüm strateji sənəddir.

Daha sonra Elm və Təhsil Nazirliyinin Elm, ali və peşə təhsili şöbəsinin sektor müdiri Səbinə Babayeva təqdimatla çıxış edərək yeni ixtisas təsnifatı layihəsi üzrə görülən işlər barədə məlumat verib. Təqdimatda layihədə aparılmış dəyişikliklər, struktur yenilikləri, ixtisas istiqamətlərinin əmək bazarının mövcud və gələcək tələblərinə uyğunlaşdırılması, həmçinin beynəlxalq təcrübə ilə uyğunluğun təmin olunması istiqamətində görülən işlər iştirakçıların diqqətinə çatdırılıb.

Görüş zamanı peşə təhsili müəssisələrinin nümayəndələri ilə yeni ixtisas təsnifatının tətbiqinin praktiki aspektləri və layihənin təkmilləşdirilməsinə dair təkliflər ətrafında fikir mübadiləsi aparılıb.

Sonda layihə üzrə görüləcək növbəti işlər, fəaliyyət planı və qarşıdakı mərhələlər müzakirə olunub.

# 20 ilin ən yüksək göstəricisi

**Azərbaycan məktəbliləri Beynəlxalq Fizika Olimpiadasında son 20 ilin ən yüksək nəticəsini əldə ediblər**




**4-12 iyul tarixlərində Kolumbiyanın Bukaramanqa şəhərində keçirilən 56-cı Beynəlxalq Fizika Olimpiadasında (IPhO 2026) Azərbaycan komandası 3 gümüş və 2 bürünc medal qazanıb.**

Belə ki, Sumqayıt şəhəri Nizami Gəncəvi adına Texniki və təbiət elmləri liseyinin XI sinif şagirdi Zeynəb Məhəmmədli, Sumqayıt şəhər Təbiət elmləri təmayüllü gimnaziyanın XI sinif şagirdi Bəxtiyar Ağayev və Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyinin XI sinif şagirdi Murad Xəlil gümüş medala layiq görülüblər.

Bakı şəhəri Fizika, riyaziyyat və informatika təmayüllü liseyin XI sinif şagirdi Raiq Babazadə və Bakı şəhəri Texniki-humanitar liseyin XI sinif şagirdi Məhəmməd Cəfərli isə bürünc medal qazanıblar.

Qeyd edək ki, Azərbaycan məktəbliləri Beynəlxalq Fizika Olimpiadasında əldə etdikləri bu nəticə ilə son 20 ilin ən yüksək göstəricisinə imza atıblar.

Beynəlxalq Fizika Olimpiadası məktəblilər arasında fizika fənni üzrə keçirilən ən nüfuzlu beynəlxalq bilik yarışlarından biridir. Cari ildə keçirilən olimpiadada dünyanın müxtəlif ölkələrindən yüzlərlə məktəbli iştirak edib.

# QARABAĞ UNİVERSİTETİ: İNKİŞAFIN YENİ MƏRHƏLƏSİ

**2025-2026-cı tədris ili Qarabağ Universitetində sürətli institusional böyümə, akademik keyfiyyətin yüksəldilməsi, elmi fəaliyyətin genişləndirilməsi, beynəlxalq əməkdaşlığın gücləndirilməsi və tələbə nailiyyətləri ilə zəngin mühüm mərhələ olmuşdur. İki il əvvəl fəaliyyətə başlayan universitet başa vurduğumuz tədris ilində müasir, tələbə mərkəzli, tədqiqat əsaslı və beynəlxalq əməkdaşlığa açıq universitet modelinin formalaşdırılması istiqamətində mühüm nəticələr əldə etmişdir. Qarabağ Universitetinin sürətli inkişafının əsasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin universitetə xüsusi diqqəti və davamlı dövlət dəstəyi dayanır. Dövlət başçısının 2025-ci ildə iki dəfə universitetdə olması, Qarabağ Universitetinin Klinikası və Tibb və sağlamlıq elmləri fakültəsinin tədris korpusunun, Biznes və iqtisadiyyat fakültəsinin yeni binasının açılışında iştirakı, Mühəndislik fakültəsinin yeni binasının təməlini qoyması universitetin inkişafına verilən strateji əhəmiyyətin bariz ifadəsidir.**




### Keyfiyyətli tələbə kontingenti və sürətli institusional inkişaf

2025/2026-cı tədris ilinin mühüm nəticələrindən biri yüksək akademik göstəricilərə malik gənclərin Qarabağ Universitetinə marağının artması olmuşdur. 600-dən yüksək bal toplamış 127 abituriyent bu universiteti seçmişdir. Əvvəlki tədris ilində bu göstəricinin 101 nəfər olması qəbul keyfiyyətində müsbət dinamikanı göstərir.

Ümumilikdə, 500-dən yüksək bal toplamış 332 gənc, 400-dən yüksək nəticə göstərmiş 613 gənc Qarabağ Universitetinin tələbəsi adını qazanmışdır. Universitetə qəbul olunan ən yüksək nəticəli tələbə 684 bal toplamışdır. Respublika Fənn Olimpiadalarının beş qalibinin müsabiqədənkənar qaydada universitetə qəbul olunması da istedadlı gənclərin artan marağının göstəricisidir.

İlk dəfə tələbə qəbulu aparılan “Tibb” ixtisasında keçid balının 614,6, “Tibb bacısı (qardaşı) işi” ixtisasında 490,6 bal olması yeni akademik proqramlara yüksək marağı nümayiş etdirmişdir. İncəsənət fakültəsində “İnstrumental ifaçılıq” və “Musiqi müəllimliyi” ixtisasları üzrə qəbul göstəriciləri də ölkə üzrə yüksək nəticələr sırasında yer almışdır.

Tələbə sayının 2143-ə çatması, akademik və inzibati heyətin 400 nəfəri ötməsi, kadr hazırlığı həyata keçirilən ixtisasların sayının 25-dən 34-ə yüksəlməsi Qarabağ Universitetinin qısa müddətdə böyük ali təhsil müəssisəsinə çevrilmək istiqamətində sürətlə irəlilədiyini göstərir. Universitetin əməkdaşları sırasında 5 xarici ölkə vətəndaşının yer alması isə formalaşmaqda olan beynəlxalq akademik mühitin və müxtəlif təcrübələrin tədris prosesinə cəlb




olunmasının təzahürlərindən biridir.

### Akademik keyfiyyət və beynəlxalq standartlara uyğun təhsil

Ötən tədris ilində əsas prioritetlərdən biri təhsil proqramlarının müasir əmək bazarının tələbləri və beynəlxalq akademik standartlara uyğun formalaşdırılması olmuşdur. Yeni ixtisaslar üzrə tədris planları hazırlanaraq təsdiq edilmiş, fakültələrdə tədris, tədqiqat, innovasiya, sənaye əməkdaşlığı və tələbələrlə iş istiqamətləri sistemli inkişaf etdirilmişdir.

Ən mühüm nailiyyətlərdən biri Biznes və iqtisadiyyat fakültəsinin “Mühasibat” və “Maliyyə” proqramlarının ACCA tərəfindən beynəlxalq akkreditasiyadan keçməsi olmuşdur. Qarabağ Universitetinin ilk beynəlxalq proqram akkreditasiyası kimi tarixə düşən bu nəticə proqramların məzmun və təlim nəticələrinin beynəlxalq tələblərə uyğunluğunun təsdiqidir.

Akademik keyfiyyət tələbələrin beynəlxalq peşə imtahanlarındakı uğurlarında da özünü göstərmişdir. Biznes və iqtisadiyyat fakültəsinin bir tələbəsi ACCA-nın “Financial Management” imtahanında Azərbaycan, Türkiyə və Gürcüstan regionu üzrə birinci, dünya üzrə beşinci yeri tutmuş, digər tələbəmiz “Financial Reporting” imtahanında region üzrə birinci nəticə göstərmişdir.

“İqtisadiyyat” ixtisası üzrə bakalavriat proqramının Oksford Universitetinin iqtisadçı alimləri ilə birgə hazırlanması akademik məzmunun beynəlxalq təcrübə əsasında yenilənməsinin mühüm nümunəsidir. Proqramda fundamental iqtisadi istiqamətlərlə yanaşı, data analitikası, süni intellekt və proqramlaşdırma kimi müasir kompetensiyalara xüsusi yer ayrılmışdır.

### Qarabağda yeni tibbi təhsil və klinik ekosistemin qurulması

2025/2026-cı tədris ilinin mühüm yeniliklərindən biri Qarabağ Universitetində tibbi təhsilin və klinik fəaliyyətin əsasının qoyulması olmuşdur.

Tibb və sağlamlıq elmləri fakültəsində beynəlxalq təcrübə əsasında hazırlanmış kompetensiyaya əsaslanan 6 illik “Tibb” və 4 illik “Tibb bacısı (qardaşı) işi” proqramlarının tədrisinə başlanılmışdır. Yeni model inteqrasiya olunmuş fənlərarası tədrisə, klinik düşünmənin, praktik bacarıqların, tədqiqat və analitik təfəkkürün inkişafına əsaslanır. Pasiyentmərkəzli yanaşma, simulyasiya və klinik bacarıq təlimləri, əsas və klinik elmlərin inteqrasiyası, beynəlxalq təcrübəli professor-müəllim heyətinin tədrisə cəlbi yeni tibbi təhsil modelinin əsas elementləridir.

Tədris proqramına “İncəsənət və humanitar elmlər” komponentinin daxil edilməsi gələcək həkimlərin peşə bilikləri ilə yanaşı, kommunikasiya, komanda işi, yaradıcı düşünmə və özünüifadə bacarıqlarının inkişafına xidmət edir.

Qarabağ Universitetinin Klinikasının fəaliyyətə başlaması tələbələrin klinik təcrübəsi üçün yeni imkanlar yaratmaqla yanaşı, Qarabağ regionunda müasir səhiyyə ekosisteminin formalaşdırılmasına mühüm töhfədir.

### Elmi-tədqiqat fəaliyyətində yeni mərhələ

Qarabağ Universitetinin qısa müddətdə mühüm irəliləyiş əldə etdiyi istiqamətlərdən biri elmi-tədqiqat fəaliyyətidir. Tədqiqat mühitinin formalaşdırılması, akademik heyətin elmi fəaliyyətə təşviqi və nüfuzlu elmi bazalarda təmsilçiliyin genişləndirilməsi artıq konkret nəticələrlə müşayiət olunur.

“Scopus” bazasında indekslənən nəşrlərin sayı 2024-cü ildə 6, 2025-ci ildə 26, 2026-cı ilin ilk altı ayında isə 30 olmuşdur. Beləliklə, 2024-2026-cı illərdə “Scopus”




bazasında məqalələrin sayı 62-yə çatmış, həmin nəşrlərə 139 istinad edilmişdir. 2026-cı ilin ilk yarısında dərc olunan 30 məqalə artıq 2025-ci ilin tam illik göstəricisini üstələmişdir.

Elmi nəticələr keyfiyyət və beynəlxalq görünürlük baxımından da inkişaf edir. Universitet əməkdaşlarının tədqiqatları “Evolution Equations and Control Theory, PLoS ONE”, “Journal of Environmental Management”, “Scientific Reports”, “ACS Omega”, “IEEE Access və RSC Advances” kimi beynəlxalq elmi jurnallarda dərc edilmişdir. Bu, Universitetdə formalaşan elmi potensialın qlobal akademik mühitə çıxış imkanlarının genişləndiyini göstərir.

Tədqiqatların tematik istiqamətləri də universitetin strateji missiyası ilə uzlaşır. Elmi nəşrlərin BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri üzrə bölgüsündə ən yüksək göstərici 9 məqalə ilə “İqlim fəaliyyəti” istiqamətində qeydə alınmışdır. “Ləyaqətli iş və iqtisadi artım” mövzusuna 7, “Sənaye, innovasiya və infrastruktur” istiqamətinə 6, “Əlçatan və təmiz enerji” sahəsinə 6, “Sağlamlıq və rifah” mövzusuna 4 məqalə həsr edilmişdir.

Universitet alimlərinin tədqiqatları keyfiyyətli təhsil, gender bərabərliyi, bərabərsizliyin azaldılması, dayanıqlı şəhərlər və icmalar, məsuliyyətli istehlak, torpaq üzərində həyat və məqsədlər üçün tərəfdaşlıq istiqamətlərini də əhatə edir. Bu göstəricilər elmi-tədqiqat fəaliyyətinin dayanıqlı inkişaf, enerji, iqtisadi tərəqqi, innovasiya və institusional əməkdaşlıq kimi strateji sahələrdə cəmləşdiyini göstərir.

Bu istiqamətlənmə Qarabağın bərpası və uzunmüddətli inkişaf perspektivləri baxımından xüsusi məna daşıyır. Elmi-tədqiqat fəaliyyətinin regionun real inkişaf ehtiyacları ilə əlaqələndirilməsi mühüm strateji yanaşmadır. İqlim dəyişiklikləri, təmiz enerji, dayanıqlı iqtisadi inkişaf, innovativ infrastruktur və tərəfdaşlıq mövzularında araşdırmalar universitetin gələcəkdə regionun elmi-intellektual mərkəzlərindən birinə çevrilməsi üçün zəmin yaradır.

Bununla yanaşı, akademik heyət arasında elmi dərəcə alanların sayının artması Universitetin elmi potensialının və tədqiqatçı kadr bazasının güclənməsinin mühüm göstəricilərindəndir. Akademik heyətin elmi və pedaqoji potensialının inkişafı, müasir elmi yanaşmalarla tanışlığı da diqqət mərkəzində saxlanılmışdır. Dünya Azərbaycanlı Alimlər Birliyi ilə əməkdaşlıq çərçivəsində universitetin akademik və inzibati heyəti üçün “Elmin populyarlaşdırılması” və “Ali təhsil pedaqogikası: müəllim peşəkarlığının nəzəri və praktik əsasları” mövzularında təqdimatlar keçirilmişdir. Bu cür akademik müzakirələr qabaqcıl elmi-pedaqoji təcrübənin bölüşülməsinə və universitetdə tədqiqat mədəniyyətinin inkişafına xidmət edir.

Cari tədris ili “Biophysics & Beyond” adlı universitetin ilk elmi jurnalının işıq üzü görməsi ilə də əlamətdardır. Hesabat dövründə Qarabağ Universitetinin əməkdaşının müəllifliyi ilə “Müstəqil Türk Dövlətlərində Dil Siyasəti” əsərinin ali təhsil müəssisəmizin ilk monoqrafiyası kimi nəşri mühüm başlanğıc olmuşdur.

Gənc tədqiqatçıların elmi fəaliyyətə cəlbi diqqət mərkəzində saxlanılmışdır. Qarabağ Universitetindən Doktorant və gənc tədqiqatçıların XXVIII Respublika elmi konfransında 18, “Qərbi Azərbaycana qayıdış” III konqres-festivalında isə 20-yə yaxın gənc əməkdaş elmi məruzələrlə çıxış etmişdir. Bundan əlavə, Bakı Dövlət Universitetinin ev sahibliyi, Qarabağ Universitetinin yerli və xarici universitetlərlə birlikdə tərəfdaşlıq etdiyi “Türk dünyasında transformasiya və inteqrasiya: iqtisadiyyat, siyasət və texnologiya” beynəlxalq konfransında 20-dən çox gənc əməkdaşlarımız təmsil olunmuşdur. Bu nəticələr yeni tədqiqatçı nəslinin formalaşdırılması və gənc akademik heyətin elmi mühitə inteqrasiyası istiqamətində görülən işlərin miqyasını göstərir.

Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş “Türk Dünyası Həftəsi” çərçivəsində 20-dən çox ölkədən 100-dən artıq türkoloq alimin Qarabağ Universitetində bir araya gəlməsi xüsusi əhəmiyyət daşımışdır. Xankəndidə keçirilən müzakirələr şəhərin beynəlxalq akademik əməkdaşlıq və elmi fikir mübadiləsi məkanı kimi mövqeyinin güclənməsinə töhfə vermişdir.

Beynəlxalq bazalarda indekslənən nəşrlərin artımı, tədqiqatların strateji istiqamətlər üzrə inkişafı, ilk monoqrafiya və elmi jurnalın nəşri, gənc tədqiqatçıların elmi proseslərə fəal cəlbi və Xankəndinin beynəlxalq elmi tədbirlərə ev sahibliyi etməsi universitetdə formalaşan tədqiqat ekosisteminin əsas göstəriciləridir.

*(Davamı var)*

**Şahin BAYRAMOV,**
**Qarabağ Universitetinin rektoru**

## Qarabağ Universitetində İstanbul Texniki Universiteti ilə birgə ikili diplom proqramına start verilir

**2026-2027-ci tədris ilindən etibarən Qarabağ Universitetində dünyanın nüfuzlu texniki ali təhsil müəssisələrindən biri olan İstanbul Texniki Universiteti (İTÜ) ilə birgə mühəndislik ixtisasları üzrə ikili diplom proqramına start veriləcək.**




Yeni ikili diplom proqramı Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2025-ci il tarixli “Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması ilə bağlı əlavə tədbirlər haqqında” Sərəncamı ilə müəyyən edilmiş ali təhsildə beynəlxalq ikili diplom proqramlarının əhatə dairəsinin genişləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində reallaşdırılır və dövlət hesabına maliyyələşdirilir.

İkili diplom proqramı Mühəndislik fakültəsinin “İnşaat mühəndisliyi”, “Elektrik və elektronika mühəndisliyi”, “Mexanika mühəndisliyi” və “Kimya mühəndisliyi” ixtisaslarını əhatə edir. Proqram çərçivəsində tədris tamamilə ingilis dilində aparılacaq. Tələbələr ilk 3 il Qarabağ Universitetində, son bir il isə İstanbul Texniki Universitetində təhsil alacaqlar. Təhsili uğurla başa vuran məzunlara hər iki universitetin diplomu təqdim olunacaq.

İkili diplom proqramı çərçivəsində İTÜ-nün professor-müəllim heyəti tədris prosesinə cəlb olunacaq, tələbələr Xankəndidə yaradılacaq müasir laboratoriyalarda təhsil alacaq, istehsalat təcrübəsini isə Türkiyədə keçəcəklər. Eyni zamanda Türkiyədə yay məktəbində də iştirak imkanı qazanacaqlar. Təhsil müddətində tələbələr nəzəri biliklərlə yanaşı, real layihələr üzərində çalışaraq layihələndirmə, istehsal, texnoloji proseslərin idarə olunması və mühəndislik həllərinin hazırlanması sahələrində peşəkar bacarıqlar qazanacaqlar.

Müasir laboratoriyalar, sənaye müəssisələri ilə əməkdaşlıq və praktik yönümlü tədris sayəsində tələbələr əmək bazarının tələblərinə uyğun kompetensiyalar əldə edə, ölkənin infrastrukturunun, sənayesinin və texnoloji inkişafının dəstəklənməsinə, eləcə də innovativ və dayanıqlı həllərin hazırlanmasına töhfə verməyə hazır mütəxəssis kimi formalaşacaqlar.

Qeyd edək ki, "QS World University Rankings 2027" nəticələrinə əsasən İstanbul Texniki Universiteti Türkiyə universitetləri arasında birinci, dünya universitetləri arasında isə 279-cu yerdə qərarlaşıb.

# MİQ: UĞUR QAZANANLARIN ÜNVANI

MİQ-dən REPORTAJ

# "Uşaqlıqdan müəllim olmağı arzulamışam..."

**Müəllim peşəsinə aparan yol artıq uzun illərdir ki, vahid qaydalarla müəyyənləşir. Son on ildə müəllimlərin işə qəbulu mərkəzləşdirilmiş qaydada həyata keçirilir. Müəllimlərin işə qəbulu (MİQ) müsabiqəsi təhsilverənlərin bilik və bacarıqlarının obyektiv qiymətləndirilməsini təmin edir. Təsadüfi deyil ki, son on ildə MİQ yolu ilə işə qəbul olunan müəllimlərin 99,8 faizi sertifikatlaşdırma prosesindən uğurla keçib, onların təxminən 80 faizi isə yüksək nəticə göstərib. Bu il müəllimlərin işə qəbulu üzrə müsabiqənin iyulun 14-dən başlayan test imtahanları 18-dək davam edəcək. İmtahanlar ölkənin 19 şəhərində yerləşən 38 imtahan mərkəzində keçirilir. Biz də paytaxt məktəblərində təşkil olunan həmin mərkəzlərdən birində imtahandan çıxan namizədlərlə söhbətləşdik. İmtahan bitdikdən sonra mərkəzin qarşısına toplaşanlar arasında ilk dəfə MİQ-də iştirak edən yeni məzunlar da, illərdir arzuladığı nəticə üçün yenidən imtahan verənlər də, topladığı balı artıraraq başqa məktəbdə və ya başqa bölgədə işləmək istəyən müəllimlər də var... Yüksək nəticəsinə sevinən də vardı, gözlədiyi balı toplaya bilmədiyi üçün heyifsilənən də...**

## Ən böyük arzusu paytaxt məktəblərinin birində işləməkdir




**Esmira Əliyeva**

**İmtahan mərkəzindən ən sevincli ayrılan namizədlərdən biri Esmira Əliyeva idi. O, 2013-2017-ci illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetində “Təsviri incəsənət müəllimliyi” ixtisası üzrə təhsil alıb. 2020-ci ildə MİQ müsabiqəsi ilə Tovuz rayonunda müəllim kimi işə qəbul olunub. Hazırda Orxan Cabbarov adına Qovlar şəhər inteqrasiya təlimli internat tipli gimnaziyada daimi əsaslarla müəllim kimi çalışır.**

Bu dəfə isə məqsədi başqadır. Bakıda yaşayan müəllim 95,25 bal toplayaraq paytaxt məktəblərinin birində fəaliyyətini davam etdirmək istəyir. İmtahan barədə danışarkən daha çox sualların praktik tərəfinə diqqət çəkir: “Suallar asan, orta və çətin səviyyələr üzrə bölünmüşdü. Mənə görə, daha çox tətbiqi xarakter daşıyırdı. Müəllimin məktəbdə hər gün qarşılaşdığı situasiyalar — şagird-müəllim, müəllim-müəllim münasibətləri, yaranan problemlərin həlli ilə bağlı suallar idi. Düşünürəm ki, bunlar məktəbdə çalışan müəllimin cavablandırması mümkün olan suallar idi”.

Müsahibimiz Esmira Əliyeva MİQ-i müsbət qiymətləndirir: “Hər kəs öz biliyinə əsasən qiymətləndirilir. Məncə, MİQ müəllimlərin işə qəbulunda şəffaf mexanizmdir. İndi ən böyük arzum ilk seçim turunda uğur qazanaraq paytaxt məktəblərinin birində işləməkdir”.

## "MİQ imtahanı olmasaydı, Bakıda işləyə bilməzdim"




**Fəridə Baxşizadə**

**Yüksək nəticə göstərən müəllimlərdən biri də Fəridə Baxşizadə idi. 2014-cü ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin “Təsviri incəsənət müəllimliyi” ixtisasını bitirən müəllim artıq altıncı dəfə MİQ imtahanında iştirak edir. Hazırda Bakı məktəblərindən birində müddətli müqavilə ilə çalışır. Ötən il 90,05 bal toplayan F.Baxşizadə bu il nəticəsini 92,5 bala yüksəldib:**

“Məncə, iştirak etdiyim imtahanlar arasında ən çətini bu il oldu. Xüsusilə ixtisas suallarında cavab variantları bir-birinə çox yaxın idi. Kurikulum sualları da daha çox situasiya tipli idi. Bəzi suallarda uzun müddət düşündüm. Həyəcanım da var idi. Elə buna görə imtahandan bir qədər tez çıxdım. İndi fikirləşirəm ki, bir az da vaxt ayırsaydım, cavabları yenidən yoxlasaydım, nəticəm daha yüksək ola bilərdi”.

Yüksək nəticə göstərən Fəridə Baxşızadə hesab edir ki, müəllimlərin işə qəbulu sistemi ən doğru seçimdir: “MİQ imtahanı olmasaydı, yəqin ki, Bakıda işləyə bilməzdim. Düşünürəm ki, MİQ müəllimlərin bilik və bacarıqlarını obyektiv qiymətləndirən, şəffaf və ədalətli mexanizmdir”.

## "Öz üzərimdə işləyirdim, ayrıca intensiv hazırlığım olmayıb"




**Zərnişan Məmmədli**

**MİQ imtahanında 92,25 bal toplayan Zərnişan Məmmədli 2014-2018-ci illərdə Gəncə Dövlət Universitetində təhsil alıb.**

Z.Məmmədli universiteti bitirdikdən sonra müxtəlif illərdə Abşeron və Bakı məktəblərində müddətli müqavilə ilə müəllim kimi çalışıb. Son olaraq Sabunçu rayonundakı 337 nömrəli tam orta məktəbdə fəaliyyət göstərib. Müqaviləsi başa çatdıqdan sonra isə yenidən MİQ imtahanında iştirak edib. Onun sözlərinə görə, praktik təcrübə xüsusilə situasiya tipli sualların cavablandırılmasında ciddi üstünlük yaradır: “Suallara baxanda cavab bəzən aydın görünür. Amma situasiya tipli tapşırıqlarda artıq yaşadığınız hadisələri xatırlayırsınız. Sinifdə qarşılaşdığınız vəziyyətlər gözünüzün önünə gəlir və düzgün cavabı seçmək daha asan olur”.

Z.Məmmədli builki imtahan üçün xüsusi hazırlıq keçmədiyini də gizlətmir: “Əlbəttə, internetdə materiallara baxırdım, öz üzərimdə işləyirdim. Amma ayrıca intensiv hazırlığım olmayıb. Düşünürəm ki, MİQ müəllimlərin öz biliklərini nümayiş etdirməsi və şəffaf şəkildə işə qəbul olunması üçün ən düzgün yanaşmadır”.

## "Ümid edirəm ki, bu nəticə ilə müəllim kimi fəaliyyətə başlaya biləcəyəm"




**Səbinə Cəfərova**

**Təcrübənin kömək etdiyini deyənlər olduğu kimi, nəticəsini əsasən hazırlığı ilə əlaqələndirən namizədlər də vardı.**

Onlardan biri Səbinə Cəfərova idi. Bakalavr təhsilini Naxçıvan Dövlət Universitetində, magistr təhsilini isə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında “Ekspertiza” ixtisası üzrə alan gənc müəllim builki imtahanda 90,5 bal toplayıb. Ötən il imtahana ciddi hazırlaşmadan qatılıb və cəmi 50 bal toplamışdı.

Müsahibimiz deyir ki, bu dəfə məqsədi sadəcə imtahanda iştirak etmək yox, nəticəsini dəyişmək olub: “Bu il imtahana ciddi hazırlaşdım. Hazırlaşan biri üçün suallar normal səviyyədə idi. İxtisas suallarını rahat cavablandırdım. Kurikulum bölməsində isə nəzəri suallar gözlədiyimdən çox idi. Mən hazırlıq zamanı daha çox situasiya tipli suallara üstünlük vermişdim”.

Hələ məktəbdə müəllim kimi fəaliyyət göstərməsə də, ən böyük arzusunun məhz buna nail olmaq olduğunu deyir: “Uşaqlıqdan müəllim olmağı arzulamışam. Ümid edirəm ki, topladığım bu nəticə ilə mən də müəllim kimi fəaliyyətə başlaya biləcəyəm”.

## "MİQ daha ədalətli və şəffaf mexanizmdir"




**Vüsalə Babayeva**

**İmtahan mərkəzində söhbətləşdiyimiz namizədlər arasında texnologiya müəllimliyi üzrə yüksək nəticə göstərənlərdən biri də V.Babayeva idi. Azərbaycan Dövlət Pedaqoji Kollecinin məzunu olan V.Babayeva ötən il MİQ müsabiqəsi nəticəsində Bakıdakı 329 nömrəli məktəbdə müddətli müqavilə əsasında çalışıb. Bu il isə yenidən imtahan verərək 88,75 bal toplayıb.**

Onun sözlərinə görə, ixtisas sualları rahat olsa da, kurikulum bölməsində cavab variantlarının bir-birinə yaxın olması daha çox düşünməyi tələb edib: “İxtisas sualları mənə çox rahat gəldi. Kurikulum suallarında isə cavab variantları bir-birinə çox bənzəyirdi. Buna görə seçim etmək üçün daha çox düşünmək lazım gəlirdi”.

V.Babayeva hesab edir ki, müəllimlərin işə qəbulunun mərkəzləşdirilmiş qaydada həyata keçirilməsi namizədlər üçün bərabər imkan yaradır: “İnsan hazırlaşaraq öz biliyi ilə nəticə əldə edir. Məncə, MİQ müəllimlərin işə qəbulunda daha ədalətli və şəffaf mexanizmdir”.

## "Düşünürəm ki, hazırlaşanlar üçün imtahan çətin deyildi"




**Emilya Babayeva**

**90 bal toplayan Emilya Babayeva isə artıq məktəb mühitinə bələddir. O, 2023-2024-cü tədris ilində müddətli müqavilə ilə müəllim kimi çalışıb. Hazırda işləməsə də, yenidən məktəbə qayıtmaq üçün MİQ imtahanında iştirak edib.**

Hazırlığını əsasən özü təşkil etdiyini deyən Emilya son üç ay ərzində daha intensiv çalışdığını bildirir: “Əsasən, internet resurslarından istifadə etdim. Özüm hazırlaşdım. Həm ixtisas, həm də metodika sualları mənə normal gəldi. Düşünürəm ki, hazırlaşan müəllimlər üçün imtahan o qədər də çətin deyildi”.

O, müəllim kimi işləməsinin bəzi sualları cavablandırarkən üstünlük yaratdığını da vurğulayır: “Praktik təcrübə bəzi suallarda həqiqətən kömək etdi. Məktəbdə qarşılaşdığımız vəziyyətlər imtahandakı bəzi tapşırıqlarda da öz əksini tapmışdı”.

E.Babayeva növbəti tədris ilində də Bakı məktəblərində fəaliyyət göstərmək istədiyini deyir.

## "Əsas məqsədim müəllim kimi fəaliyyətə başlamaqdır"




**Xədicə Əlizadə**

**İmtahan mərkəzindən ayrılan müəllimlər arasında Xədicə Əlizadənin hekayəsi isə bir qədər fərqli idi. 2025-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetini “Təsviri incəsənət müəllimliyi” ixtisası üzrə qırmızı diplomla bitirən gənc müəllim ötən il ilk MİQ imtahanında 81,5 bal toplasa da, uyğun vakansiya olmadığı üçün işlə təmin olunmayıb. Bu dəfə imtahana xüsusi hazırlaşmadığını özü də etiraf edir: “Bu il xüsusi hazırlaşmadım. Əvvəlki biliklərimə əsaslanaraq sualları cavablandırdım və 83,75 bal topladım”.**

Hazırda təsviri incəsənət müəllimi kimi özəl mərkəzlərdə çalışan X.Əlizadə uyğun vakansiya olacağı təqdirdə Bakı və ya ona yaxın ərazilərdə işləmək istədiyini deyir: “Uyğun vakansiya olsa, məktəbdə işləmək istəyirəm. Əsas məqsədim müəllim kimi fəaliyyətə başlamaqdır”.

Artıq imtahan mərkəzinin qarşısı seyrəlməyə başlayırdı. Bir qədər əvvəl nəticələrini həyəcanla yoxlayan namizədlər indi müxtəlif istiqamətlərə üz tuturdular. Kimisi topladığı baldan razı idi, kimisi isə növbəti il daha yaxşı nəticə göstərəcəyinə inanırdı. Amma hamısını birləşdirən ortaq məqam müəllim olmaq arzusu idi...

**Səhifəni hazırladı: Mərziyyə KAZIMZADƏ**

# BİRİNCİ TÜRKOLOJİ QURULTAY



# Bakıdan başlanan yolun

## Qarabağ zirvəsi

**1926-cı ildə Bakıda keçirilən Birinci Türkoloji Qurultay təkcə türkoloji elmin tarixində deyil, ümumilikdə XX əsrin elmi və mədəni həyatında mühüm dönüş nöqtələrindən biri oldu. Türk dünyasının müxtəlif ölkələrindən alimləri bir araya gətirən bu möhtəşəm elmi toplantı ortaq əlifba, dil, terminologiya, təhsil və mədəni inteqrasiya kimi məsələləri gündəmə gətirməklə sonrakı onilliklərdə türkoloji tədqiqatların inkişaf istiqamətlərini müəyyənləşdirdi. Qurultay yalnız bir elmi tədbir deyildi, həm də ortaq düşüncənin, elmi həmrəyliyin və türk xalqlarının gələcəyinə yönəlmiş strateji baxışın ifadəsi idi.**

Aradan keçən yüz il göstərdi ki, həmin Qurultayda səsləndirilən ideyaların böyük hissəsi bu gün də aktuallığını qoruyur. Türk dövlətləri arasında elmi əməkdaşlığın genişlənməsi, ortaq əlifba istiqamətində atılan addımlar, dil siyasəti və ortaq mədəni irsin qorunması ilə bağlı təşəbbüslər 1926-cı ildə əsası qoyulan düşüncə xəttinin davamıdır.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası və Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə Birinci Türkoloji Qurultayın 100 illiyi münasibətilə 29 iyun—3 iyul 2026-cı il tarixlərində Bakı və Xankəndidə keçirilən “Türk Dünyası Həftəsi” çərçivəsində təşkil olunan tədbirlər türkoloji elmin tarixi inkişaf ardıcıllığını və elmi varislik ənənəsini bir daha nümayiş etdirdi. Yubiley proqramının Bakıda başlanması və 2 iyul 2026-cı ildə Qarabağ Universitetində “Birinci Türkoloji Qurultayın elmi və mədəni irsi” mövzusunda beynəlxalq konfransla davam etdirilməsi dərin elmi və simvolik məzmun daşıyırdı. Əgər 1926-cı ildə Bakıda keçirilən Birinci Türkoloji Qurultay türkoloji elmin inkişafında yeni mərhələnin əsasını qoymuşdusa, yüz il sonra həmin elmi ənənənin Qarabağ Universitetində davam etdirilməsi Azərbaycanın elmi-mədəni irsinin davamlılığını və Qarabağın türkoloji tədqiqatların yeni mərkəzlərindən birinə çevrilməkdə olduğunu nümayiş etdirən mühüm hadisə kimi qiymətləndirilə bilər.

Qarabağ Universitetində keçirilən beynəlxalq konfrans yalnız Birinci Türkoloji Qurultayın yüz illiyinə həsr olunmuş yubiley tədbiri deyildi. Bu konfrans işğaldan azad edilmiş torpaqlarda elmin, təhsilin və mədəni həyatın dirçəlişinin, Qarabağın yenidən beynəlxalq akademik məkanın ayrılmaz hissəsinə çevrildiyinin bariz göstəricisi idi. Dünyanın müxtəlif ölkələrindən türkoloqların Xankəndidə bir araya gəlməsi sübut etdi ki, Qarabağ artıq təkcə tarixi Zəfərin rəmzi deyil, həm də elmi əməkdaşlığın, intellektual dialoqun və türkoloji araşdırmaların yeni inkişaf məkanına çevrilməkdədir. Məqsədimiz isə bu prosesi davamlı etmək, Qarabağı türkoloji tədqiqatların aparıldığı, beynəlxalq elmi layihələrin həyata keçirildiyi və türk dünyasının alimlərini bir araya gətirən nüfuzlu akademik mərkəzlərdən birinə çevirməkdir.

Bu hadisə mənim üçün həm də xüsusi mənəvi məna daşıyır. Hələ 2021-ci ildə Türkiyə mətbuatına verdiyim müsahibədə Birinci Türkoloji Qurultayın yüz illik yubileyinin Qarabağda keçirilməsinin əhəmiyyətini vurğulayaraq demişdim: “Birinci Bakı Türkoloji Qurultayının ikincisi və 100 illiyi 2026-cı ildə Şuşada keçirilə bilər. Bu, çox mənalı olar. Şuşa Azərbaycanla birlikdə Türk dünyasının mədəniyyət və elm şəhərinə çevriləcək”.

Həmin vaxt bu fikir gələcəyə ünvanlanmış bir arzu olmaqla yanaşı, tarixi zərurətdən doğan elmi baxışı da ifadə edirdi. Beş il sonra Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş beynəlxalq tədbirlərin əvvəlcə Bakıda, daha sonra isə Xankəndidə — Qarabağ Universitetində keçirilməsi həmin baxışın gerçəkliyə çevrildiyini göstərdi. Tədbirin Qarabağ Universitetində təşkil olunması xüsusi rəmzi məna daşıyırdı. Bununla Birinci Türkoloji Qurultayının elmi irsi öz tarixi və mənəvi məkanına qayıtdı, Qarabağ isə yenidən beynəlxalq elmi dialoqun və türkoloji düşüncənin mühüm ünvanlarından biri kimi öz sözünü deməyə başladı.

Qarabağ Universitetində keçirilən beynəlxalq konfrans Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş yubiley tədbiri olmaqla yanaşı, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində elmin, təhsilin və mədəni həyatın bərpasının mühüm göstəricilərindən biri kimi də böyük əhəmiyyət daşıyırdı.

Konfransın açılış mərasimində Qarabağ Universitetinin rektoru Şahin Bayramov çıxış edərək Birinci Türkoloji Qurultayın türk dünyasının elmi və mədəni həyatında mühüm dönüş nöqtələrindən biri olduğunu vurğulayıb. O bildirib ki, Qurultayın irsi bu gün də türkoloji elmin inkişafına və ortaq elmi-mədəni dəyərlərin öyrənilməsinə töhfə verməkdə davam edir. Rektor qeyd edib ki, Qarabağ Universitetində belə elmi tədbirlərin təşkili universitetin Türk Dünyası ilə akademik əməkdaşlığın genişləndirilməsi istiqamətində həyata keçirdiyi fəaliyyətin mühüm tərkib hissəsidir.

Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini Fərid Cəfərov çıxışında Birinci Türkoloji Qurultayın türk xalqlarının ortaq elmi düşüncəsinin və mədəni həmrəyliyinin formalaşmasında mühüm rol oynadığını qeyd edib. O vurğulayıb ki, bu irsin qorunması, öyrənilməsi və gələcək nəsillərə çatdırılması türk dünyasının ortaq məsuliyyətidir. Nazir müavini belə tədbirlərin tarixi yaddaşın yaşadılması, elmi əməkdaşlığın möhkəmləndirilməsi və mədəni əlaqələrin inkişafı baxımından xüsusi əhəmiyyət daşıdığını bildirib.

Qarabağ Universitetinin Elm şöbəsinin müdiri, dosent Elçin İbrahimovun moderatorluğu ilə keçirilən plenar iclasda Ankara Universitetinin dosenti Mehmet Rza Heyət, “Ədəbiyyat qəzeti”nin baş redaktoru Azər Turan, AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun baş elmi işçisi, professor Solmaz Rüstəmova-Tohidi və Rusiya Federasiyası Tatarıstan Elmlər Akademiyasının Tarix İnstitutunun professoru İsmət Zaatov Birinci Türkoloji Qurultayın elmi irsi və müasir türkologiyanın aktual məsələlərinə dair məruzələrlə çıxış etdilər. Dünyanın müxtəlif ölkələrindən türkoloqların Xankəndidə bir araya gəlməsi Qarabağın türkoloji tədqiqatlar və beynəlxalq elmi əməkdaşlıq üçün yeni platformaya çevrilməkdə olduğunu, eyni zamanda türk dünyasının ortaq intellektual məkanının formalaşmasına mühüm töhfə verdiyini nümayiş etdirdi.

1926-cı ildə Bakıda əsası qoyulan türkoloji elmi əməkdaşlıq ənənəsinin yüz il sonra Qarabağda beynəlxalq konfrans vasitəsilə davam etdirilməsi tarixi varisliyin və elmi davamlılığın parlaq təzahürü kimi qiymətləndirilə bilər. Bu konfrans təkcə Birinci Türkoloji Qurultayın zəngin elmi irsinə ehtiramın ifadəsi deyil, həm də Azərbaycanın elm siyasətində Qarabağın strateji rolunu nümayiş etdirən, türk dünyasının ortaq elmi gələcəyinə yönəlmiş mühüm bir addım olmuşdur.

Birinci Türkoloji Qurultayın yüz illiyi bir daha təsdiq edir ki, onun elmi irsi yalnız tarixi yaddaşın mühüm tərkib hissəsi deyil, həm də türkoloji elmin gələcək inkişaf istiqamətlərini müəyyənləşdirən strateji ideya mənbəyidir. Türk dünyasının ortaq elmi məkanının formalaşdırılması, ortaq əlifbanın tətbiqi, dil siyasəti və mədəni inteqrasiyanın dərinləşdirilməsi bu gün də aktuallığını qoruyan prioritet istiqamətlər sırasındadır. Yüz il əvvəl Bakıda əsası qoyulan elmi əməkdaşlıq ənənəsinin bu gün Qarabağda davam etdirilməsi həmin ideyaların yeni tarixi şəraitdə inkişaf etdiyini və türkoloji elmin yeni mərhələyə qədəm qoyduğunu göstərir.

Qarabağda, xüsusilə Xankəndi və Şuşada keçirilən beynəlxalq elmi tədbirlər bu regionun türkoloji araşdırmaların və beynəlxalq akademik əməkdaşlığın mühüm mərkəzlərindən birinə çevrilməsi üçün əlverişli elmi mühitin formalaşdığını göstərir. Qarşıdakı dövrdə əsas vəzifələrdən biri Qarabağı türkoloji tədqiqatların sistemli şəkildə həyata keçirildiyi, yeni elmi ideyaların formalaşdığı və türk dünyasının alimlərini bir araya gətirən nüfuzlu akademik mərkəz kimi inkişaf etdirməkdir. Bu baxımdan Birinci Türkoloji Qurultayın yüz illiyinin azad Qarabağda qeyd olunması yalnız tarixi irsə ehtiramın ifadəsi deyil, eyni zamanda türkoloji elmin ikinci yüzilliyinin prioritetlərini müəyyənləşdirən mühüm elmi və strateji mesaj kimi qiymətləndirilə bilər.

**Elçin İBRAHİMOV,**
**Qarabağ Universitetinin**
**Elm şöbəsinin müdiri, dosent**

# TÜRKOLOGİYA VƏ TƏHSİL TARİXİNƏ DƏYƏRLİ TÖHFƏ

**Azərbaycan xalqının XX əsr tarix və mədəniyyətinin, elm və təhsil salnaməsinin şərəfli, ancaq kədərli səhifələrindən biri kimi milli yaddaşımıza qızıl hərflərlə həkk olunmuş Birinci Türkoloji Qurultay zəngin keçmişə və qədim mədəni irsə sahib olan türk xalqlarının mədəni inteqrasiyasında yeni bir dönəmin təməlini qoymuş müstəsna əhəmiyyətli tarixi-mədəni hadisələrdəndir. Çağdaş türkologiya elminin başlanğıcı sayılan beynəlxalq miqyaslı bu unikal elmi Forumda türkologiyanın gələcək inkişaf yollarının konsepsiyasını verən türkoloji problemlər müzakirə olunmuş, türk dünyasının ortaq dəyərlərinin - dil, tarix, ədəbiyyat, etnoqrafiya və mədəniyyətinin taleyüklü məsələlərinə dair məruzələr dinlənilmiş, müvafiq qətnamələr qəbul edilmiş, latın qrafikası əsasında vahid ümumtürk əlifbasına keçilməsi xüsusi diqqət mərkəzində saxlanılmışdı...**

1926-cı ilin 26 fevralından martın 6-na kimi Bakıda çağdaş şəhər memarlığının tacı sayılan İsmailiyyədə gerçəkləşdirilən, 131 nəfər rəsmi nümayəndə və çoxsaylı qonaqların iştirak etdiyi böyük türkoloqlar İsmayıl bəy Qaspıralı və V.V.Radlovun şərəfinə həsr olunan Birinci Türkoloji Qurultayda 17 iclas keçirilmiş, 7 türkoloji problem (əlifba, orfoqrafiya, terminalogiya, tədris metodika, dil əlaqələri, ortaq ədəbi dil, ulu dil nəzəriyyəsi və türk dillərinin tarixi məsələləri) ətrafında 38 məruzə dinlənilmişdi. Ancaq türk dünyasının tarixi yaddaşına əbədi həkk olunmuş bu Forumun 100-dən artıq rəsmi iştirakçısının, seçmə alim və fikir adamının əksəriyyətinin qurultaydan az sonra "qırmızı terrora" məruz qalmaları, onların fiziki məhvi ilə sonuçlanan bu Qurultayın bizə miras qalan materialları həm də yaxın keçmişimizin ən böyük alim-ziyalı soyqırımı sənədi kimi də milli yaddaşımıza daxil olub.

Bu Beynəlxalq Forumun türk dünyası üçün tarixi-mədəni əhəmiyyətini nəzərə alan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2005-ci ildə Qurultayın 80 illiyi haqqında imzalanan və türkologiyaya dair ilk Prezident Fərmanı olaraq bu elmin inkişafına yaşıl işıq yandırdı. Bunun ardınca dövlət başçısının Qurultayın 90 və 100 illiyinin keçirilməsi haqqında Sərəncamları, eləcə də Qurultayın 100 illiyi ilə bağlı Prezidentimizin təşəbbüsü ilə bu günlərdə Azərbaycanda keçirilən “Türk Dünyası Həftəsi” türk dövlətləri və xalqları arasında mədəni inteqrasiyasının inkişafında müstəsna rol oynadı.

Böyük məmnuniyyət və minnətdarlıq duyğuları ilə bildiririk ki, artıq bu gün türkologiyada Birinci Türkoloji Qurultayla bağlı Vətənimizdə və digər qardaş türk dövlətlərində ayrıca elmşünaslıq bölməsi formalaşıb, bu istiqamətdə yüzlərlə monoqrafiya, kitab və broşür, toplular, minlərlə məqalələr çap olunub, irihəcmli biblioqrafik göstəricilər nəşr edilib.

Belə əsərlərdən biri də bugünlərdə çap olunan ADPU-nun professoru, Əməkdar elm xadimi Fərrux Rüstəmovun “Azərbaycan Dövlət Pedaqoji Universiteti və Birinci Ümumittifaq Türkoloji Qurultay” (Bakı: “Elm və təhsil”, 2026, 454 s) monoqrafiyasıdır. Birinci Türkoloji Qurultayın 100, Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) 105 illiyinə həsr olunan monoqrafiyanın ideya müəllifi ADPU-nun rektoru professor Cəfər Cəfərov, elmi redaktoru ADPU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, Əməkdar müəllim, professor Mahirə Hüseynova, elmi məsləhətçisi Azərbaycanda Atatürk Mərkəzinin direktoru, AMEA-nın həqiqi üzvü, professor Nizami Cəfərov, “Ön söz”ün müəllifi AMEA Dilçilik İnstitutunun baş direktoru professor Nadir Məmmədlidir.

Zəngin arxiv sənədləri və elmi mənbələr əsasında yazılan monoqrafiya “Giriş”, iki fəsil və “Nəticə”dən ibarətdir. Monoqrafiyada xeyli arxiv sənədləri və




şəkillər ilk dəfədir ki, çap olunur, elmi dövriyyəyə daxil edilir.

F.Rüstəmov bu əsərində Birinci Türkoloji Qurultayın tarixinin vacib məqamlarını ADPU-nun zəngin tarixinin ayrılmaz hissəsi kimi təqdim edir, keçmiş Azərbaycan Dövlət Pedaqoji İnstitutu (hazırki ADPU-nun sələfi) əməkdaşlarının həmin mürəkkəb və taleyüklü tarixi proseslərdəki xidmətlərini zəngin arxiv materialları və elmi faktlar əsasında ön plana çəkir. Müəllif ötən əsrin 20-ci illərində Azərbaycan Dövlət Pedaqoji İnstitutu Vətənimizdə milli elmi və təhsilin əsas intellektual mərkəzlərindən biri kimi təqdim etməyə nail olub ki, bu da əsərin elmi-nəzəri və konseptual dəyərini əhəmiyyətli dərəcədə artırır. Kitabda Birinci Türkoloji Qurultayda baş verənlər ideologiya - elm - siyasət üçbucağında təhlil edilir, ADPU-nun bu tarixi prosesdə institusional rolu əsaslandırılır, repressiyaya məruz qalmış türkoloqların taleyi sənədləşdirilir və qurultayın əlifba, dil, terminologiya və milli kimlik məsələlərindəki tarixi missiyası elmi-nəzəri müstəvidə təhlil edilir.

Kitabın “Birinci Türkoloji Qurultay: tarix, ideologiya və mədəniyyət” adlı ilk fəslində qurultayın ideoloji, elmi və mədəni mahiyyəti sistemli şəkildə araşdırılır və XX əsrin ilk rübündə türk dünyasının taleyini müəyyənləşdirən mürəkkəb ictimai-siyasi proseslərin mərkəzində dayanan tarixi hadisə kimi təqdim edilir. Qurultayın çağırılma səbəbləri, dövrün ictimai-siyasi mühiti, sovet hakimiyyətinin türkoloji elmə münasibəti, partiya nəzarət mexanizmləri və ideoloji təzyiq formaları zəngin sənəd və faktoloji materiallar əsasında araşdırılır. Kitabda Pedaqoji İnstitut təmsilçilərinin qurultaydakı məruzələrinin ideya istiqaməti, elmi-nəzəri əsasları və metodoloji mövqeyi sistemli şəkildə təhlil olunur. Dünya miqyaslı türkoloq alimlərin - V.V.Bartoldun Forumda müzakirə olunan məsələlərə tarixi-komparativ yanaşması, A.N.Samoyloviçin türk dillərinin təsnifinə dair konsepsiyası, N.F.Aşmarinin dialektoloji və etnoqrafik araşdırmaları geniş elmi kontekstdə təqdim edilir. Bununla yanaşı, Azərbaycan alimlərinin - Bəkir Çobanzadənin dil quruculuğu və terminologiya məsələlərinə dair baxışları, Hənəfi Zeynallının əlifba islahatı və ədəbi dil problemlərinə münasibəti, Xalid Səid Xocayevin yeni əlifba və dil siyasəti istiqamətində irəli sürdüyü ideyalar - milli elmi fikrin formalaşması prosesində mühüm mərhələ kimi dəyərləndirilir.

Fəslin sonunda Birinci Türkoloji Qurultayın tarixi dərsləri, onun müasir dövr üçün aktuallığı və elmi-mədəni proseslər baxımından əhəmiyyəti əsaslandırılır. Müəllif göstərir ki, elmi fikir siyasi məqsədlərə tabe etdirildikdə elmin təbii inkişaf məntiqi pozulur; bu isə həm elmin öz inkişafına, həm də cəmiyyətin mənəvi həyatına mənfi təsir göstərərək, nəticə etibarilə faciəvi proseslərə yol aça bilir. Eyni zamanda vurğulanır ki, milli özünüdərkin və elmi irsin davamlılığı yalnız azad düşüncə, intellektual məsuliyyət və tarixi milli yaddaşa sədaqət prinsipləri üzərində təmin oluna bilər.

Kitabın ikinci fəsli “Azərbaycan Dövlət Pedaqoji Universitetinin Birinci Ümumittifaq Türkoloji Qurultayda iştirak edən direktorları” adlanır. Bu fəsildə Qurultay iştirakçısı olmuş Pedaqoji İnstitut direktorlarının bioqrafiyası, elmi fəaliyyəti və məruzələri kompleks şəkildə təqdim olunur. Əsərdə Cəlil Məhəmmədzadə, Şərif Manatov, Pənah Qasımov, Hüseyn Musayev kimi şəxsiyyətlər ali pedaqoji təhsil sisteminin təşəkkülündə mühüm rol oynamış, elmi təşəbbüsləri idarəçilik fəaliyyəti ilə üzvi şəkildə əlaqələndirən rəhbərlər kimi səciyyələndirilir. Onların kadr hazırlığı prosesinə verdikləri töhfələr, eləcə də ideoloji məsələlərin elmi əsaslarla istiqamətləndirilməsindəki vətəndaş-alim mövqeləri faktlar əsasında oxucuya çatdırılır.

“Azərbaycan Dövlət Pedaqoji Universitetin Birinci Türkoloji Qurultayda iştirak edən müəllimləri” adlı üçüncü fəsildə dünya miqyaslı türkoloqların (V.V.Bartold, A.N.Samoyloviç, Əli bəy Hüseynzadə, Mehmet Fuad Köprülü, N.F.Aşmarin və b.) və milli elmi simaların (B.Çobanzadə, Ə.Ubaydullin, H.Zeynallı, X.Səid Xocayev və b.) terminologiya, dil siyasəti və əlifba məsələləri ilə bağlı çıxışları elmi təhlil müstəvisində təqdim edilir.

Professor F.Rüstəmovun “Azərbaycan Dövlət Pedaqoji Universiteti və Birinci Ümumittifaq Türkoloji Qurultay” kitabında universitetin elmi-mədəni irsinin mühüm bir dövrü sənədləşdirilir, eyni zamanda ADPU-nun professor-müəllimlərinin türkologiya elminə verdiyi töhfələr müasir türk dünyasının taleyüklü məsələləri ilə inteqrasiyada elmi ictimaiyyətə çatdırılır. Məsələyə bu cür yanaşma elmi əsəri akademik və mədəni-tarixi baxımdan Vətənimizi türklüyün və türkologiyanın mərkəzlərindən biri olduğunu əsaslandıran ümumtürkoloji dəyərə malik etibarlı elmi mənbəyə çevirir, elm və təhsilin inkişafına töhfə verən dəyərli örnək araşdırma missiyası qazandırır.

Professor F.Rüstəmovun uzunmüddətli gərgin əməyinin və səmərəli axtarışlarının nəticəsi olaraq elmi ictimaiyyətə təqdim olunan “Azərbaycan Dövlət Pedaqoji Universiteti və Birinci Ümumittifaq Türkoloji Qurultay” adlı fundamental monoqrafiyası türkologiya elminə və Azərbaycanın təhsil tarixinə dəyərli töhfə kimi dəyərləndirilməlidir.

**ƏSGƏR QULİYEV,**
**ARTİ yanında Tədris Resursları Mərkəzinin şöbə müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent, Əməkdar müəllim**

# Uğur hekayələri

## "Kainatı anlamaq məni fizikaya bağladı"



**Məlumat verdiyimiz kimi, Sumqayıt şəhər Texniki və təbiət elmləri liseyinin XI sinif məzunu Zeynəb Məhəmmədli Kolumbiyanın Bukaramanqa şəhərində keçirilən 56-cı Beynəlxalq Fizika Olimpiadasında (IPhO 2026) gümüş medal qazanıb. Bununla da o, Beynəlxalq Fizika Olimpiadasında gümüş medal qazanan ilk azərbaycanlı şagird kimi adını tarixə yazdırıb. Son 20 ilin ən yüksək göstəricisinə imza atan istedadlı gənc təəssüratlarını "Azərbaycan müəllimi" ilə bölüşüb.**



**"Gündəlik həyatda baş verən hadisələrin səbəbini bilmək mənim üçün olduqca maraqlıdır"**

2009-cu ildə Sumqayıt şəhərində anadan olan Zeynəb Məhəmmədli bu il Texniki və təbiət elmləri liseyinin məzunu olub. İbtidai siniflərdən dərslərini əla qiymətlərlə oxuyan Zeynəb təbiət elmlərinə xüsusi maraq göstərib. Qeyd edir ki, riyaziyyat fənninə də marağı böyükdür. Həmçinin bədii kitab oxumağı çox sevir:

"Məktəbdə bizə ilk tədris olunduğu andan fizika fənnindən çox xoşum gəlib. Kainatı modelləşdirmək və gündəlik həyatda baş verən hadisələrin səbəbini, açıqlamasını bilmək mənim üçün olduqca maraqlıdır, bu, məni fizikaya bağladı. Bu mövzuda ən çox həm valideynlərim, həm də məktəbim, müəllimlərim məni dəstəkləyib. Bunun üçün onlara təşəkkür edirəm. Uğurlarımla onları qürurlandığım üçün çox xoşbəxtəm".

Zeynəb elmi nailiyyətləri ilə seçilən ən istedadlı şagirdlərdən olub. O, 2023-cü ildə Respublika fənn olimpiadasında fizika üzrə gümüş medal, 2024 və 2025-ci illərdə isə qızıl medallar qazanıb. Bundan əlavə, 2025-ci ildə Fransanın paytaxtı Parisdə keçirilən Beynəlxalq Fizika Olimpiadasında (IPhO), Səudiyyə Ərəbistanında keçirilən Asiya Fizika Olimpiadasında (APhO) həvəsləndirici mükafata layiq görülüb, 2026-cı ildə Qazaxıstanda keçirilən Beynəlxalq Jautikov Olimpiadasında bürünc medal qazanıb, 2026-cı il Respublika fənn olimpiadalarında isə gümüş medal əldə edib.

Buraxılış imtahanında 265 bal toplayan Zeynəb Məhəmmədli ABŞ-nin nüfuzlu ali təhsil müəssisələrindən biri olan Davidson Kolleci tərəfindən tam təqaüdlə qəbul təklifi alıb. Bu səbəbdən o, blok imtahanında iştirak etməyib: "İxtisas seçimim hələ dəqiq deyil, amma fizika və riyaziyyatla bağlı bir sahədə çalışmaq istəyirəm. Uğur qazanmaq istəyən şagirdlərə demək istərdim ki, üzərində işləyəcəyiniz sahəni seçərkən ən çox həvəs göstərdiyiniz istiqamətə önəm verin".

**Lamiyyə ƏLİMƏRDANOVA,**
**Abşeron-Xızı və Quba-Xaçmaz üzrə regional təmsilçi**

## 59 yaşında oğlunun müəllim işlədiyi mərkəzin məzunu oldu

**“Peşə təhsili almaq istəyimi ailəm müsbət qarşıladı, xüsusilə də oğlum. Çünki o, təhsil aldığım peşə təhsil mərkəzində müəllim kimi fəaliyyət göstərir. Ailəmin dəstəyi və “oxumaq heç vaxt gec deyil” şüarı ilə tələbəliyə addım atdım”.**





Bu fikirlər müsahibimiz Elşad Əhmədova məxsusdur. Bu dəfə onlarda rollar dəyişib. Elə özünün də dediyi kimi, əlindən tutub addımlamağı öyrətdiyi oğlu ona təhsil yolunda dəstək göstərib.

Bərdə Dövlət Peşə Təhsil Mərkəzindən məzun olan 59 yaşlı Əhmədov Elşad Telman oğlu 1967-ci ildə Bərdədə doğulub. Bakı şəhərində 90 nömrəli peşə məktəbində “Radioteleviziya” ixtisası üzrə təhsil alıb. Növbəti peşə təhsilini isə illər sonra 1 illik “Elektrik qaz qaynağı” ixtisası üzrə Bərdədə davam etdirib. Motivasiya səbəbinin övladı olduğunu deyir müsahibimiz:

“Oğlum tez-tez peşə təhsili, mərkəzdəki tədris prosesi, maddi-texniki bazası haqqında məlumatlar verirdi. Buna mənim ən böyük istiqamətlənmə səbəbim deyə bilərəm. Yaş məsələsinə gəldikdə, “oxumaq hər yaşda mümkündür” şüarı mənə bir az da təkan verdi. Oğlum Musa yüksək texniki peşə təhsil səviyyəsi üzrə dərs deyir, mən isə texniki peşə səviyyəsi üzrə təhsil alırdım. Təsəvvür edin ki, evdən ata-oğul olaraq çıxıb, mərkəzə müəllim-tələbə kimi daxil olurduq”.

E.Əhmədov burada yaxşı yoldaşlar qazandığını, ona göstərilən etimadı doğrultmaq üçün bacardığı qədər çalışdığını dilə gətirir:

“Fənn müəllimlərimin hər zaman qayğısını hiss etmişəm. Mən də öz növbəmdə onların etimadını davamiyyətim, dərslərə hazır gəlməyimlə doğrultmağa çalışırdım. Təbii ki, bu yaşda təhsil almaq, tələbə olmaq fərqli hissdir. Düşünürəm ki, burada qazandığım təcrübələr bundan sonrakı fəaliyyətimdə böyük əhəmiyyət kəsb edəcək”.

Elşad Əhmədov yaşıdları ilə söhbətində də onlara təhsil almağın vacibliyindən danışdığını deyir. “Radioteleviziya” peşəsindən sonra “Elektrik qaz qaynağı”nda təhsil almasını isə belə əlaqələndirir:

“Niyə məhz elektrik qazqaynağı peşəsi? Çünki bu sahədə müəyyən təcrübəm var idi. Nəzəri bilikləri praktikada birləşdirib, daha yüksək nəticə əldə edəcəyimə inandığım, həm də istədiyim peşənin incəliklərinə dərindən bələd olmaq üçün təhsilə yönəldim”.

Atasına dərs deməsə də, onun davamiyyəti, dərslərə hazırlığı ilə maraqlandığını deyən oğlu Musa Əhmədov 5 ildir ki, bu mərkəzdə müəllim olaraq fəaliyyət göstərir.

"Atam tədrisə başlamamışdan əvvəl mərkəzin daxili qayda-qanunlarından da bəhs etmişdim. Onun tədris zamanı həm davamiyyəti, həm də dərslərdə fəallığı yüksək olub.

Atamın tələbə, mənim isə müəllimlik fəaliyyəti göstərdiyim mərkəz istər ölkədaxili, istərsə də ölkəxarici yarışlarda iştirak edir, qalibiyyət qazanır. Bu da təhsilə, inkişafa meyilliyin göstəricisidir deyə bilərəm".

**Rəmziyyə HƏSƏNOVA,**
**Qarabağ və Şərqi Zəngəzur üzrə regional təmsilçi**



**Bəzən bir şəhər insan üçün sadəcə təhsil aldığı yer olmur. O şəhər zamanla tanış küçələrə, gündəlik həyatın bir hissəsinə çevrilir. Naxçıvan Dövlət Universitetində təhsil alan türkiyəli tələbələr üçün də Naxçıvan artıq belə bir məkan olub. “Azərbaycan müəllimi” həmin tələbələrlə söhbətləşib.**



## “Sanki öz ölkəmdəyəm”

### Naxçıvanda təhsil alan türkiyəli tələbələr

**“Burada qalmağı və çalışmağı düşünürəm”**

Tekirdağ şəhərindən olan Emrə Bayraqçəken deyir ki, universitet seçimi zamanı əsas meyarlardan biri dil və mədəni yaxınlıq olub:

“Azərbaycan bizim qardaş ölkəmizdir. “Dilimizin yaxın olması burada təhsil almağı mənim üçün daha rahat edəcək”, - deyə düşünürdüm. Bundan əlavə, burada oxuyan türk tələbələrlə danışmışdım. Onlar Naxçıvanın gözəl, sakit və yaşamaq üçün əlverişli yer olduğunu, xüsusilə tibb təhsilinin yaxşı təşkil edildiyini söyləmişdilər. Mən də onların tövsiyəsi ilə Naxçıvan Dövlət Universitetini seçdim”.

Hazırda ikinci kursu bitirən tələbə qeyd edir ki, bir il hazırlıq mərhələsi keçib. Naxçıvanla ilk tanışlığı isə gözləntilərindən fərqli olub, burada özünü heç vaxt yad hiss etməyib:

“Azərbaycana daha əvvəl gəlməmişdim. Açığı, fərqli mühit gözləyirdim. Amma buraya gəldikdən sonra gördüm ki, sanki öz ölkəmdəyəm. İnsanların münasibəti çox isti və səmimidir. Hətta bəzən elə olur ki, burada gördüyüm davranışlar mənə ailəmi xatırladır”.

Onun fikrincə, Naxçıvanın ən böyük üstünlüklərindən biri təhlükəsizlik və sakit həyat tərzidir:

“Tekirdağ böyük və daha izdihamlı şəhərdir, amma Naxçıvanda fərqli bir sakitlik və nizam var”.

Tələbə boş vaxtlarında bölgələri gəzməyə də üstünlük verir. O, Ordubad, Şahbuz, Batabat, Şərura səfər etdiyini, Əlincə qalasına qalxdığını, kəndləri gəzərək bölgəni daha yaxından tanımağa çalışdığını deyir. Təhsilini başa vurduqdan sonra gələcəklə bağlı planlarında Naxçıvan da yer alır:

“Əgər gələcəkdə burada işləmək imkanı olsa, Naxçıvanda qalmağı və çalışmağı düşünərəm. Mən buranı həqiqətən sevirəm. Son dövrlərdə dermatologiya sahəsinə marağım artıb”.

Ailə üzvlərinin hələ onu ziyarət etmədiyini deyən tələbə bildirir ki, yay aylarında gəlməyi planlaşdırırlar. Türkiyədəki dostları da onun paylaşdığı şəkillər vasitəsilə Naxçıvana maraq göstərirlər.

Azərbaycanlı tələbələrlə münasibətlərini isə xüsusi vurğulayır:

“Bir-birimizə dəstək oluruq. Tələbə məsuliyyətli olduqda təhsil prosesində problem yaşanmır”.

Mətbəx və gündəlik həyata uyğunlaşmaqda da çətinlik çəkmədiyini deyən tələbə bunu ortaq mədəniyyət və oxşar həyat tərzi ilə əlaqələndirir:

“Naxçıvan yaşamaq üçün gözəl yerdir. Burada olmaqdan məmnunam və burada təhsil almağı başqa tələbələrə də tövsiyə edə bilərəm”.

**“Naxçıvanda oxumaq qərarını verdim”**

NDU-nun Tibb fakültəsinin 3-cü kurs tələbəsi, Türkiyənin Kocaeli şəhərindən olan Oğuzhan Karabacaq 4 ildir ki, buradadır. “Nə üçün məhz Naxçıvanı seçdiniz?” sualına isə səmimi cavab verir:

“Mən xüsusilə tibb təhsili almaq istəyirdim. Öyrəndik ki, Azərbaycanda, xüsusilə Naxçıvanda bu sahə üzrə yaxşı imkanlar var. Buraya gəldik, gördük, insanlarla danışdıq və bəyəndik. Ondan sonra burada oxumağa qərar verdim. Bir üstünlük də o idi ki, Naxçıvan Türkiyəyə yaxındır. Dil də yaxın olduğu üçün uyğunlaşmaq bizim üçün daha rahat olur”.

Dərs prosesi isə maraqlı və öyrədici keçir:

“İlk mərhələdə dərslər daha çox nəzəri şəkildə olur. Müəllimlər təqdimatlar və materiallar vasitəsilə dərsi izah edirlər. Sonra seminarlar və klinik mərhələyə keçid başlayır. Klinik mərhələdə xəstəxanalarda, xəstələr üzərində müşahidə və təcrübə aparılır. Bu ildən etibarən bizim də praktik mərhələmiz başladı. Müəllimlərimizlə birlikdə xəstəxanalara gedirik, müşahidələr aparırıq. Hətta məktəblərdə tibbi baxış proseslərində iştirak etdiyimiz vaxtlar da olub. Əgər öyrənmək istəyi varsa, müəllimlə ayrıca danışıb boş vaxtlarında da əlavə təcrübə qazanmaq mümkündür”.

Azərbaycanlı tələbələrin hamısını çox sevdiyini deyir:

“Çox yaxşı münasibətimiz var. Dərs mövzularında bir-birimizə kömək edirik, seminarlara birlikdə hazırlaşırıq. Məncə, bizim üçün üstünlüklərdən biri də dil və mədəniyyət yaxınlığıdır. Adətlərimiz də bir-birinə yaxındır. Bu səbəbdən uyğunlaşmaq çətin olmadı.

Şərura, Ordubada getmişəm. Hazırlıq dövründə universitet bizi müxtəlif yerlərə aparmışdı. Əshabi-Kəhfi də görmüşük. Çox xoş təəssüratlarım qalıb”.

Ailəsi uzaq olsa da, dostlarının ailəsi tez-tez onu qonaq edir. Ona görə də mətbəximizi yaxından tanıyır:

“Burada bəzi yeməklər mənə maraqlı gəldi. Məsələn, plovun içində şabalıd, ərik kimi əlavələr olur. Açığı, çox bəyəndim”.

Gələcək planlara gəlincə isə təhsili bitirdikdən sonra ABŞ və ya Kanadada rezidenturada oxumaq istəyir:

“Əgər alınmasa, Türkiyədə davam etmək istəyərəm. Hər halda öz ölkəmə dönüb işləməyi düşünürəm. Travmatologiya və ortopediya sahəsi marağımı çəkir. Uşaqlıqdan həkim olmaq istəyirdim. Bir dəfə əmimlə birlikdə gəzəndə o, bir həkim haqqında danışmışdı və o vaxtdan bu peşə ağlımda qalıb”.

Sonda isə Naxçıvanda oxumaq istəyən xarici tələbələrə tövsiyələri var:

“Naxçıvan oxumaq istəyən tələbələr üçün həqiqətən yaxşı yerdir. Müəllimlər, universitet rəhbərliyi oxumağa dəstək olur. Burada xarici tələbə olduğun üçün də diqqət göstərirlər, kömək etməyə çalışırlar. İnsanlar çox səmimidir. Dostlarımla bağlı çox gözəl xatirələrim oldu. Ona görə Naxçıvanı həm təhsil, həm də yaşamaq baxımından tövsiyə edə bilərəm”.

Bu iki gəncin hekayəsi göstərir ki, Naxçıvanda təhsil almağa gələn türkiyəli tələbələr üçün universitet yalnız bilik qazandıran məkan deyil. Burada qurulan dostluqlar, hiss edilən doğmalıq, ortaq dəyərlər və qarşılıqlı dəstək onları vətəndən uzaqda belə öz evlərində hiss etdirir. Bəlkə də buna görə onların dilindən ən çox səslənən fikir eynidir: “Sanki öz ölkəmdəyəm”.

**Aytən YUSİFOVA,**
**Naxçıvan Muxtar Respublikası üzrə təmsilçi**

# ELMƏ VƏ TƏHSİLƏ HƏSR OLUNMUŞ ÖMÜR



**Azərbaycan pedaqoji fikrinin, təhsilşünaslıq elminin və ədəbiyyatın tədrisi metodikasının inkişafında mühüm xidmətləri olan görkəmli alim, pedaqogika elmləri doktoru, professor, Əməkdar müəllim Piralı Behbudalı oğlu Əliyevin anadan olmasının 70 ili tamam olur. Ömrünün yarım əsrdən çoxunu elmə, təhsilə, müəllimlik sənətinə, gənc nəslin milli-mənəvi dəyərlər ruhunda tərbiyəsinə həsr etmiş professor Piralı Əliyev Azərbaycan təhsilnin inkişafında özünəməxsus yer tutan ziyalılardandır.**

**Onun həyat yolu təkcə bir alimin və ya pedaqoqun bioqrafiyası deyil, həm də Azərbaycan müəlliminin, tədqiqatçısının, vətəndaş ziyalısının formalaşma tarixidir. O, fəaliyyətinin bütün mərhələlərində elm və təhsil arasında möhkəm körpü yaratmağa çalışmış, nəzəri biliklərin praktik tədris prosesində tətbiqinə xüsusi diqqət yetirmişdir. İstər ədəbiyyatın, istərsə də pedaqogikanın, xüsusilə müasir nəzəri-konseptual məsələlərinin araşdırılmasında müasir məktəbin tələblərinə cavab verən nəticələrə gəlmişdir. Eyni zamanda həm ümumi, həm də ali təhsilin məzmununun inkişafına töhfələr vermişdir.**

## Təhsil illəri

Professor Piralı Behbudalı oğlu Əliyev 17 iyun 1956-cı ildə Azərbaycanın qədim yaşayış məskənlərindən biri olan Füzuli rayonunun Yuxarı Yağlıvənd kəndində anadan olmuşdur. Uşaqlıq və gənclik illəri Qarabağın zəngin mənəvi mühitində keçmişdir. Erkən yaşlarından oxumağa, öyrənməyə, kitaba, söz sənətinə, milli-mədəni irsə böyük maraq göstərmiş, məktəb illərində ədəbiyyat və dil sahəsində xüsusi qabiliyyəti ilə seçilmişdir. Təhsil aldığı illərdə özünün maraq dairəsinə uyğun olaraq məktəbin müxtəlif tədbirlərində iştirak etmiş, məruzə və çıxışlarında analitik yaradıcı təfəkkürü ilə seçilmişdir.

Piralı müəllimin ailəsində, doğulub, boya-başa çatdığı elində müəllimə, onun əməyinə çox böyük hörmət və məhəbbət olmuşdur. Sonralar bu istək onun həyat yolunun leytmotivinə çevrilmiş və real müəllim ömrünün əsasını təşkil etmişdir.

Piralı müəllim orta təhsilini uğurla başa vurduqdan sonra müəllim olmaq, xalqımızın övladlarını inkişaf etdirmək arzusu onu Xankəndi Pedaqoji İnstitutunun filologiya fakültəsinə gətirmişdir. O, burada dövrünün tanınmış alimlərindən, ustad müəllimlərindən təhsil almışdır. İndi də onların dediklərini hələ də unutmur və böyük hörmət və ehtiramla yad edir. Görkəmli Molla Nəsrəddinçi, filologiya elmləri doktoru, professor Nazim Axundovun bir tövsiyəsini hələ də xatırlayır və tələbələrinə nümunə çəkir: "Yaxşı müəllim olmaq üçün xalqın bədii düşüncəsinə, dilinə və ədəbiyyatına yaxından bələd olmaq, onu sevə-sevə öyrətmək lazımdır".

Piralı müəllimin özünün də qeyd etdiyi kimi, tələbəlik illəri müəllim kadrlarının, əasasən, peşə hazırlığını formalaşdırır. Amma bu bir reallıqdır ki, ali təhsil, eyni zamanda hər hansı ixtisasdan hər bir təhsil alanın ixsası üzrə sistemli biliklərini qaydaya salır, nizamlayır. Odur ki, institut illərində Azərbaycan klassik və müasir ədəbiyyatının dərindən öyrənilməsi, pedaqoji biliklərin mənimsənilməsi və müəllimlik peşəsinin sirlərinə yiyələnməsi, elmi axtarışlara maraq göstərməsi, müxtəlif tələbə konfranslarında fəal iştirakı onun gələcək elmi fəaliyyətinin əsaslarını formalaşdırmış, tədqiqatçı kimi yetişməsində həlledici rol oynamışdır.

## Müəllimlik fəaliyyəti

**Ali təhsilini başa vurduqdan sonra Piralı Əliyev doğma Yuxarı Yağlıvənd kənd orta məktəbində Azərbaycan dili və ədəbiyyat müəllimi kimi əmək fəaliyyətinə başlamışdır. Gənc müəllim kimi qısa müddət ərzində peşəkarlığı, metodik hazırlığı və pedaqoji ustalığı ilə həm şagirdlərinin, həm də həmkarlarının hörmətini qazanmışdır.**

Onun dərsləri yüksək elmi səviyyəsi, müasir metodlardan istifadə olunması, şagirdlərdə müstəqil təfəkkürün inkişafına xidmət etməsi ilə fərqlənirdi. Müəllimlik fəaliyyətində əsas məqsədi yalnız bilik vermək deyil, eyni zamanda milli mənlik şüuruna malik vətəndaş yetişdirmək, onların bir şəxsiyyət kimi formalaşmasında rol oynamaq idi. Məhz məktəb təcrübəsi sonralar onun elmi araşdırmalarının istiqamətinin müəyyənləşməsində lazımi töhfələrini vermişdir.

Müəllimlik illərində qazandığı zəngin təcrübə ona tədris prosesində mövcud problemləri daha dərindən görməyə, onların həlli yollarını elmi əsaslarla araşdırmağa imkan vermişdir. Bu dövr gələcək metodist alimin formalaşmasının praktik mərhələsi kimi xüsusi əhəmiyyət daşıyır.

## Aspirantura və doktorantura təhsili

**Tədqiqatçılığa olan böyük maraq və istək Piralı müəllimi elmə gətirdi. O, tələbəlik illərindəki tədqiqatçılıqla bağlı ilkin təşəbbüslərini burada davam və inkişaf etdirmək istədi. O, buna da nail oldu: Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunun əyani aspiranturasına qəbul oldu.**

Aspirantura illəri onun elmi dünyagörüşünün formalaşmasında mühüm mərhələ olmuşdur. Bu dövrdə o, yalnız dissertasiya mövzusu üzərində işləməklə kifayətlənməmiş, respublika və ümumittifaq səviyyəli elmi konfranslarda çıxışlar etmiş, ilk elmi məqalələrini nəşr etdirmiş və elmi ictimaiyyətin diqqətini cəlb etmişdir.

Professor Piralı Əliyevin elmi bioqrafiyasında xüsusi yer tutan məqamlardan biri fəlsəfə doktorluğu (namizədlik) dissertasiyasını müəyyən edilmiş müddətdən əvvəl başa çatdırmasıdır. O, yüksək məsuliyyət, zəhmətkeşlik və tədqiqatçılıq bacarığı nümayiş etdirərək elmi işini vaxtından əvvəl tamamlamışdır.

1988-ci ildə "Ədəbiyyatın tədrisi prosesində şagirdlərin hərbi vətənpərvərlik tərbiyəsi" mövzusunda pedaqogika üzrə fəlsəfə doktorluğu (namizədlik) dissertasiyasını uğurla müdafiə etmişdir. Tədqiqat işində ədəbiyyat dərslərinin vətənpərvərlik tərbiyəsində rolunu elmi-nəzəri və praktik aspektlərdən araşdırmış, metodik tövsiyələr hazırlamışdır.

Dissertasiyanı vaxtından əvvəl başa çatdırdığına görə institutda elmi işçi vəzifəsində saxlanılmışdır.

P.Əliyev 1992-ci ildən elmlər doktorluğu proqramı üzrə fəaliyyətə başlamış, "Azərbaycan ümumtəhsil məktəblərində klassik şeir nümunələrinin tədrisinin nəzəri və praktik problemləri" mövzusunda doktorluq dissertasiyası üzərində ardıcıl və sistemli iş aparmışdır. Ciddi filoloji bazaya və nəzəri pedaqoji əsasa söykənən bu dissertasiyanı 2010-cu ildə uğurla müdafiə etmişdir. Bu dissertasiya Azərbaycan pedaqoji fikrində, ədəbiyyatın tədrisi metodikasında klassik şeirin təlimi məzmununun təkmilləşdirilməsi, eləcə də tədrisi sahəsində istər nəzəri, istərsə də metodik cəhətdən təcrübi, eksperimental əhəmiyyət daşıyan tədqiqat işi kimi xüsusi yer tutur. Burada klassik şeirin metodikası onun filoloji xüsusiyyətlərinin bazasında verilir.

## Elmi-tədqiqat fəaliyyəti: kiçik elmi işçidən şöbə müdirliyinə qədər

**Professor Piralı Əliyevin həyatının ən məhsuldar dövrlərindən biri Azərbaycan Respublikası Təhsil İnstitutunda keçən 1987-2022-ci illəri əhatə edir. Bu müddət ərzində o, kiçik elmi işçi, elmi işçi, böyük elmi işçi, aparıcı elmi işçi, baş elmi işçi və şöbə müdiri vəzifələrində çalışmışdır.**

Otuz beş ildən artıq davam edən bu fəaliyyət dövründə təhsilin məzmununun yenilənməsi, kurikulumların hazırlanması, təlim və tərbiyə prosesinin təkmilləşdirilməsi, təhsilin idarə olunması, məktəbdaxili idarəetmə, vətənpərvərlik tərbiyəsi və ədəbiyyatın tədrisi metodikası istiqamətlərində çoxsaylı tədqiqatlar aparmışdır.

Onun rəhbərlik etdiyi şöbələrdə həyata keçirilən layihələr Azərbaycan təhsilinin inkişafına mühüm töhfələr vermişdir.

## Elmi-pedaqoji yaradıcılığı

**Onun əsərlərində məktəbin ehtiyac və tələbatından irəli gələn və gündəm təşkil edən məsələlər öz əksini tapmışdır. Bu məsələlər sadəcə müəllifin subyektiv mülahizəsinin deyil, obyektiv müşahidələrinin ciddi təcrübə əsaslı araşdırmalarının nəticəsi kimi meydana çıxmışdır. Orada irəli sürülən müddəalar və əldə olunan nəticələr ötən əsrin sonu və XXI əsrin onillikləri üçün Azərbaycan pedaqoji fikrində daha xarakterik cəhətlər olaraq diqqəti cəlb edir.**

Piralı müəllimin elmi-pedaqoji yaradıcılığında olan elmi ritorika, struktur bütövlüyü, üslub və dil zənginliyi bütün yazılarında vahid olmaqla xüsusi bir alim platforması kimi diqqəti cəlb edir. Müəllif fikirlərində nə qədər konseptual mövqedən çıxış etsə də, nümunələrində daha praktik və anlaşıqlı yanaşmaları ilə diqqəti cəlb edir. Eyni zamanda vahid bir yaradıcılıq platforması kimi qabarıq görünsə də, tematik zənginliyinə və al-əlvanlığına görə də fərqlənir. Bu fərqlilik müəllifin elmi-pedaqoji düşüncə sferasında maraqlılıq yaradır.

Professor Piralı Əliyevin yaradıcılığında təhsilin inkişafı baxımından xüsusi əhəmiyyəti olan ən zəruri məsələlərə diqqət yetirilmişdir. Ədəbiyyatın tədrisi metodikası, təhsilin idarə olunması, kurikulum və səriştə əsaslı təhsil məsələləri, tərbiyə nəzəriyyəsi, milli-mənəvi dəyərlər, vətənpərvərlik və tolerantlıq tərbiyəsi qırmızı xətt kimi onun yaradıcılıq mərkəzindən keçmişdir.

Professor Piralı Əliyevin elmi yaradıcılığında həm pedaqogika nəzəriyyəsinin, həm də ədəbiyyatın tədrisi metodikasının ən aktual problemləri əhatə olunmuşdur. O həm namizədlik, həm də doktorluq dissertasiyasında ədəbiyyatın tədrisi metodikasının məntiqinə uyğun məsələlərlə məşğul olmuş, nəzəri, eləcə də praktik cəhətdən xüsusi əhəmiyyət daşıyan əsərlər işləyib hazırlaya bilmişdir. "Ümumtəhsil məktəblərində poetikanın tədrisinin nəzəri və praktik problemləri" (2000), "Ümumtəhsil məktəblərində Azərbaycan klassik ədəbiyyatının tədrisi (şeir nümunələri əsasında)" (2007) monoqrafiyalarında, "Poetik əsərlərin tədrisinin psixoloji əsasları" (1999), "Klassik poeziyanın qavranılması xüsusiyyətləri" (2008), "Şeir yaradan vasitələrin mənimsədilməsi yolları" (2006), "Klassik şeir nümunələrinin oxu prosesində qavranılması" (2010) və s. əsərlərin bədii xüsusiyyətlərini nəzərə almaqla onların daha optimal mənimsənilməsi məsələlərini araşdırmış və müəyyən elmi nəticələrə gəlmişdir. Burada müəllifin mükəmməl ədəbi - nəzəri yanaşmaları fonunda, ədəbi əsərlərin mənimsənilməsi metodologiyası müəyyənləşdirilmişdir.

Professor Piralı Əliyevin yaradıcılığının aparıcı istiqamətlərindən birini tərbiyə məsələləri təşkil edir. O bu problemə həsr etdiyi elmi əsərlərində tərbiyə nəzəriyyəsinin ən aktual məsələlərinə müasir müstəvidə yanaşmış, onların nəzəri və praktik problemlərini, eləcə də xüsusi halda fərqlənən şagirdlərlə işin təşkilini tədqiqat obyektinə çevirir. Onun "Məktəblilərin tərbiyəsi: problemlər, perspektivlər" (2014), "Tərbiyə işinin sistemi" (2007), "Sinif rəhbərinin illik tərbiyəvi iş planı" (2005), "Ümumtəhsil məktəblərində tərbiyə işinin planlaşdırılması" (2002), "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlarla tərbiyə işinin təşkili" (2011), "Təhsil müəssisələrində tərbiyə işinin planlaşdırılması" (2002), "Tərbiyə işinin təşkilinin nəzəriyyəsi və metodologiyası" (2023) və s. adda olan əsərləri bu gün də təhsil müəssisələrinin istifadəsindədir. Həmin əsrlər məktəblərimizin tərbiyə işinin daha optimal qurulmasının nəzəri-pedaqoji əsasını təşkil edir.

Bu gün ölkəmizdə yeni məzmunu qurulması səriştə əsaslı tədrisin yaradılması istiqamətində ardıcıl və davamlı işlər aparılır. Artıq təhsilin bütün pillə və səviyyələrində ölçüləbilən, səriştəəsaslı, təhsil mexanizmlərinin yaradılmasından danışılır. İlk növbədə, səriştəəsaslı təhsilin məzmununun ifadə olunduğu normativ-hüquqi sənədlər hazırlanır.

Professor Piralı Əliyevin araşdırmalarında bu məsələ də xüsusi bir istiqamət olaraq diqqət mərkəzində saxlanılmışdır. Həmçinin o, təhsilalanların qiymətləndirilməsi probleminin öyrənilməsində irəliləyişlərə nail olmuşdur. "Şagird nailliyətlərinin qiymətləndirilməsi yolları" (2012), "Şagird nailliyətlərinin qiymətləndirilməsi problemləri" (2011), "Ədəbiyyatdan şagird nailliyətlərinin qiymətləndirilməsinin üsul və vasitələri" (2011), "Ədəbiyyatdan şagird nailliyətlərinin qiymətləndirilməsində testlərdən istifadə" (2008) kimi əsərlərində qiymətləndirmə fəaliyyətini tənzimləyən və onlardan daha səmərəli istifadə olunması ilə bağlı araşdırmalar aparmış, gəldiyi nəticələri ümumiləşdirərək təkliflər hazırlamışdır.

Müasir dünyanın təhsil meridianında aktual olan aparıcı istiqamətlərdən biri təhsili dəyəryönümlü etmək, ona daha çox mahiyyəti ilə bağlı qiymət verməkdən ibarətdir. Dünyanın avanqard təhsil tədqiqatçıları bu ideyanı aparıcı hesab etməklə onun barəsində danışırlar: Maykl Fullan qeyd edir ki, XXI əsr təhsili xarakter, əməkdaşlıq, vətəndaşlıq, yaradıcılıq və tənqidi düşüncə kimi dəyərləri akademik nailiyyətlərlə birlikdə inkişaf etdirməlidir.

Bu gün ölkəmizdə təhsilin inkişaf etdirilməsi, müasir dünyanın gündəminə gətirilməsi ilə bağlı çağırışlar davamlı olaraq səslənməkdədir. Bu çağırışların içərisində dəyərlərlə bağlı olanlar daha çox diqqəti cəlb edir. Professor Piralı Əliyev belə alimlərimizdəndir ki, nəinki fəaliyyətində bir prinsip olaraq bu məsələni nəzərə alır. O, dəyərlərlə bağlı yazdığı silsilə əsərləri ilə pedaqoji tədqiqatların arsenalını zənginləşdirir. Bir yenilik olaraq dəyəryönümlü təhsil anlayışının mahiyyətini, müasir düşüncə baxımından əhəmiyyətini izah edir. "Dəyərlərə əsaslanan təhsil" (2019), "Dəyərlərə əsaslanan təhsilin idarə olunması" (2019), "Təhsilin dəyəryönümlü idarə olunmasında müasir yanaşmalar" (2019) əsərlərində bu problemlərin pedaqoji əsaslarından bəhs edir.

Həmçinin professor Piralı Əliyev Azərbaycan pedaqoji fikrində ilk dəfə "Tolerantlıq tərbiyəsinin sistemi" (2009), "Məktəblilərin tolerantlıq mədəniyyətinin inkişafı" (2011), "Tolerantlığın elmi-nəzəri və praktik problemləri" (2009) əsərlərində tolerantlıq pedaqogikasının mahiyyəti və məzmununun nəzəri və prakik problemlərini tədqiq edərək müəyyən elmi nəticələrə gəlir.

Artıq 5 ildən çoxdur ki, Piralı müəllim Bakı Slavyan Universitetində Pedaqogika kafedrasının müdiri işləyir. Kafedra üzrə fənlərin yüksək səviyyədə tədris olunmasına, müəyyən edilmiş elmi-tədqiqatların keyfiyyətlə yerinə yetirilməsinə, elmi-pedaqoji kadr hazırlığının inkişafına uğurla rəhbərlik edir. Bu dövrdə o, ali təhsildə keyfiyyət təminatı, müəllim hazırlığının müasir problemləri, inklüziv təhsil, milli və ümumbəşəri dəyərlər əsasında müəllim şəxsiyyətinin formalaşdırılması kimi istiqamətlərdə mühüm işlər həyata keçirmişdir. Professorun rəhbərliyi altında kafedrada elmi fəaliyyətin genişləndirilməsi, doktorant və dissertantların hazırlanması, beynəlxalq əməkdaşlığın inkişafı, müasir pedaqoji yanaşmaların tətbiqi istiqamətində əhəmiyyətli nəticələr əldə edilmişdir. Həmçinin kollektiv arasında böyük nüfuz qazanmışdır.

O, universitet Elmi Şurasının, eyni zamanda Təhsil fakültəsi Elmi Şurasının üzvüdür.

Dövlətimiz tərəfindən Piralı müəllim uzunillik məhsuldar işinə, həmçinin ölkənin təhsil quruculuğunda yüksək keyfiyyətli fəaliyyətinə görə, Əməkdar müəllim fəxri adı. "Respublikanın qabaqcıl təhsil işçisi" döş nişanı ilə təltif edilmişdir.

Yetmiş illik ömür yolu ərzində professor Piralı Behbudalı oğlu Əliyev Azərbaycan təhsilinə, pedaqoji elmin inkişafına və milli-mənəvi dəyərlərin təbliğinə misilsiz töhfələr vermişdir. O, alim, müəllim, təşkilatçı və vətəndaş kimi daim yüksək mənəvi keyfiyyətləri ilə seçilmiş, gənc nəslə örnək olmuşdur.

Bu gün professor Piralı Əliyev zəngin həyat təcrübəsi, böyük elmi irsi və yorulmaz fəaliyyəti ilə Azərbaycan elm və təhsil ictimaiyyətinin nüfuzlu simalarından biri kimi öz fəaliyyətini uğurla davam etdirməkdədir.

70 illik yubileyi münasibətilə professor Piralı Behbudalı oğlu Əliyevə möhkəm cansağlığı, uzun ömür, yeni elmi uğurlar və Azərbaycan təhsilinin inkişafı naminə həyata keçirdiyi şərəfli fəaliyyətində yeni nailiyyətlər arzulayırıq.

70 illik yubileyiniz mübarək, əziz Piralı müəllim!

**Ənvər ABBASOV,**
**Bakı Slavyan Universitetində rektor məsləhətçisi,**
**pedaqogika üzrə fəlsəfə doktoru, dosent, Əməkdar müəllim**

# "İlk yarışda medal qazandım"

## Məktəbli idmançıların uğurları



**İdman məktəblilərin fiziki hazırlığının möhkəmləndirilməsi ilə yanaşı, onların iradəli, intizamlı və məqsədyönlü şəxsiyyət kimi formalaşmasında da mühüm rol oynayır. Təhsil aldıqları məktəbləri müxtəlif yarışlarda uğurla təmsil edən şagirdlər qazandıqları nailiyyətlərlə yaşıdlarına örnək olur, müəllim və valideynlərinin etimadını doğruldurlar. Onların uğurları məktəblərdə idmanın inkişafına göstərilən diqqətin, məşqçilərin əməyi və öz zəhmətlərinin bariz nəticəsidir.**

**"Azərbaycan müəllimi" Şirvan-Salyan Regional Təhsil İdarəsinin tabeliyindəki ümumi təhsil müəssisələrinin idmanda fərqlənən bir neçə şagirdi ilə həmsöhbət olub.**

### "Ölkəmi beynəlxalq arenalarda təmsil etmək ən böyük arzumdur"

Biləsuvar rayon Əlövsət Eynullayev adına 4 nömrəli tam orta məktəbin VIII sinif şagirdi Turan Abdullazadə 2021-ci ildən sərbəst güləşlə məşğul olur.

O, bu idman növünə marağının uşaqlıqdan yarandığını deyir. Turanın sözlərinə görə, ailəsi hər zaman ona dəstək göstərib və qardaşı da vaxtilə güləşlə məşğul olub.

Turan təhsilini idmanla uğurla uzlaşdırır. Dərslərdə davamiyyətini qorumaqla yanaşı, müxtəlif yarışlarda da yüksək nəticələr əldə edib. O, 2024-cü ildə Astara rayon açıq birinciliyində I, Məktəblilərin Respublika çempionatında II, Füzuli rayon açıq birinciliyində I, Astara rayon açıq birinciliyində isə yenidən I yerə layiq görülüb. 2026-cı ildə Şirvan şəhərində keçirilən zona birinciliyinin qalibi olaraq final mərhələsinə vəsiqə qazanıb, Salyanda keçirilən açıq birincilikdə I, Biləsuvarda təşkil olunan turnirdə II yer tutub. Məktəblilərin Respublika İdman Olimpiadasında isə sərbəst güləş üzrə 48 kq çəki dərəcəsində bürünc medal qazanıb.

Turan gələcəkdə idman sahəsində ali təhsil almaq, beynəlxalq yarışlarda Azərbaycanı layiqincə təmsil etmək və daha böyük uğurlara imza atmaq niyyətindədir.

### "İdmana sağlam həyat tərzi üçün başladım"

Biləsuvar rayon Saleh Babayev adına Aşağı Cürəli kənd tam orta məktəbinin şagirdi olmuş Yusif Həbibli hazırda Biləsuvar Peşə Liseyində təhsil alır. O, iki ildir ki, boks idman növü ilə məşğuldur.

Yusif idmana sağlam həyat tərzi və özünəinamını artırmaq məqsədilə başladığını bildirir. Onun sözlərinə görə, bu seçimində ən böyük dəstəkçisi atası olub.

Gənc idmançının ilk yarışı 2026-cı ilin iyun ayında Bakıda keçirilən Məktəblilərin Respublika İdman Olimpiadası olub. O, boks üzrə 75 kq çəki dərəcəsində III yer tutaraq bürünc medala sahib çıxıb.

Yusif gələcəkdə beynəlxalq yarışlarda iştirak edərək Azərbaycanı təmsil etməyi və bu sahə üzrə ali təhsil almağı qarşısına məqsəd qoyub.

### Əsas hədəfi Azərbaycan bayrağını dünyanın ən böyük arenalarında dalğalandırmaqdır

Salyan şəhəri Nizami Gəncəvi adına 2 nömrəli tam orta məktəbin şagirdi Harun Əliyev uşaqlıqdan dünya və Avropa çempionlarını izləyərək onların yolunu davam etdirməyi arzulayıb. O, sərbəst güləşi seçməsində atasının və ailəsinin böyük rol oynadığını bildirir. Babası və əmisi də gənclik illərində bu idman növü ilə məşğul olublar.

Harun Məktəblilərin Respublika İdman Olimpiadasında III yerə layiq görülüb. Bununla yanaşı, müxtəlif turnirlərdə dəfələrlə I, II və III yerləri tutaraq çoxsaylı medal və diplomlar qazanıb.

Gənc idmançının əsas hədəfi Olimpiya Oyunlarında, Avropa və dünya çempionatlarında qalib gələrək Azərbaycan bayrağını yüksəklərə qaldırmaqdır.

### "Boks idman növlərinin şahıdır"

Neftçala şəhəri Elton Həbibiov adına 4 nömrəli tam orta məktəbin şagirdi Akif Bağırov altı yaşından boksla məşğul olur. O, idmana marağının atası Əlipaşa Bağırovun sayəsində yarandığını və ilk məşqçisinin də atası olduğunu deyir.

Akif beş dəfə rayon birincisi, üç dəfə regionlararası yarışların qalibi olub. Bakıda keçirilən turnirdə çempionluq qazanıb. Son uğuru isə 2026-cı ilin iyununda keçirilən Məktəblilərin Respublika İdman Olimpiadasında bürünc medal əldə etməsi olub.

Gələcəkdə Avropa və dünya çempionatlarında Azərbaycanı layiqincə təmsil etməyi qarşısına məqsəd qoyan Akif idman sahəsində ali təhsil almağı da planlaşdırır.

Məktəbli idmançıların qazandıqları uğurlar göstərir ki, zəhmət, əzm və məqsədyönlülük istedadla birləşdikdə böyük nəticələr əldə etmək mümkündür. Bu gün respublika yarışlarında fərqlənən bu gənclər gələcəkdə beynəlxalq arenalarda ölkəmizi uğurla təmsil edəcək idmançılar olacaqlar.

**Tural NƏSİROV,**
**Şirvan-Salyan və Mil-Muğan üzrə regional təmsilçi**



# "Zəfər" yay düşərgəsi keçiriləcək

**Elm və Təhsil Nazirliyinin "Elm və təhsil sahəsində ictimai təşəbbüslərin dəstəklənməsi" qrant müsabiqəsi çərçivəsində "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyi tərəfindən yay düşərgəsi təşkil olunacaq.**

"Zəfər" yay düşərgəsi çərçivəsində 30 məktəbli şəhid övladı innovasiyalar sahəsində təcrübəli mütəxəssislərin iştirakı ilə keçiriləcək təlimlərə cəlb olunacaq. İştirakçılar qrup formatında təşkil ediləcək intellektual oyunlarda bilik və bacarıqlarını nümayiş etdirəcək, həmçinin idman və əyləncə proqramlarında iştirak edəcəklər.

Layihə 21-24 avqust tarixlərində Şamaxı rayonunda yerləşən İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Tədris Mərkəzində həyata keçiriləcək.

Düşərgə ərzində iştirakçıların komanda işi, liderlik və rəqəmsal bacarıqlarının inkişafına dəstək göstəriləcək, innovasiya sahəsində uğur qazanmış tanınmış şəxslərlə görüşlər təşkil olunacaq.

Layihənin məqsədi məktəbli şəhid övladlarının innovativ düşüncə tərzinin, rəqəmsal bacarıqlarının və liderlik keyfiyyətlərinin inkişafına dəstək olmaq, eyni zamanda onların yay tətilinin səmərəli və faydalı təşkilinə töhfə verməkdir.


## "AZƏRBAYCAN MÜƏLLİMİ"

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov

**Reklam və elanlar:** 539-20-77; elan@media.edu.az

**Ünvan:** AZ-1052, Bakı şəhəri, Nərimanov rayonu,
Fətəli xan Xoyski, 109

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan nəşriyyatı" MMC-də çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya:** № 022327 **İndeks:** 0003

**Tiraj:** 6860 **Sifariş:** 919

**Məsul növbətçi:** S.Kərimova


# Etibarsız sayılır

**Azərbaycan Dövlət Neft Akademiyası** tərəfindən 2007-ci ildə Xəlilova Sevil Mustafa qızına verilmiş B-084768 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Kəlbəcər rayon** 23 nömrəli tam orta məktəbi 2022-ci ildə bitirmiş Ağamoğlanlı Süleyman Vahid oğluna verilmiş E-535469 nömrəli tam orta təhsil haqqında fərqlənmə attestatı itdiyi üçün etibarsız sayılır.

**Beyləqan şəhər** 1 nömrəli tam orta ümumtəhsil məktəbi 2014-cü ildə bitirmiş Qasımlı Rəqsanə Nəriman qızına verilmiş A-315902 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 26 nömrəli tam orta ümumtəhsil məktəbi 2019-cu ildə bitirmiş Mikayılzadə Əli Hüseyn oğluna verilmiş E-197461 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 184 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Əliyeva Zeynəb Vəkil qızına verilmiş B-030731 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 6 nömrəli məktəb-liseyi 2024-cü ildə bitirmiş Məsimov Eldar Əli oğluna verilmiş E-685866 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Üçtəpə kənd tam orta ümumtəhsil məktəbi 2023-cü ildə bitirmiş Ağazadə İsa Cəlal oğluna verilmiş E-636453 nömrəli tam orta təsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Xırdalan şəhər 2 nömrəli tam orta ümumtəhsil məktəbi 2004-cü ildə bitirmiş İsgəndərov İsgəndər Vəli oğluna verilmiş B-024599 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Daşkəsən şəhər** 2 nömrəli tam orta ümumtəhsil məktəbi 2023-cü ildə bitirmiş Hacızadə Elbəyi Kazım oğluna verilmiş E-602711 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gədəbəy şəhər** 1 nömrəli tam orta ümumtəhsil məktəbi 1998-ci ildə bitirmiş Məhərrəmov Zülfüqar Hüseyn oğluna verilmiş 063972 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 20 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2018-ci ildə bitirmiş Hüseynov Kənan Cabir oğluna verilmiş C-194221 nömrəli ümumi orta təhsil haqqında attestat və 2020-ci ildə verilmiş E-344008 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Dövlət Sərhəd Xidməti Xüsusi Məktəbin** IX sinfini 2023-cü ildə bitirmiş Haxverdiyev Turan Məhərrəm oğluna verilmiş C-767004 nömrəli ümumi orta təhsil haqqında attestat və 2025-ci ildə verilmiş E-875887 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şabran şəhər** 3 nömrəli tam orta ümumtəhsil məktəbi 2018-ci ildə bitirmiş Əhmədova Gülüstan Cavad qızına verilmiş E-163472 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Beyləqan şəhər Peşə Məktəbi** tərəfindən 1998-ci ildə Orucova (Həsənova) Gültəkin Şura qızına verilmiş AB-008902 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Dəliməmmədli şəhər tam orta ümumtəhsil məktəbi 2004-cü ildə bitirmiş Qasımova (Səlimova) Aynurə Hüseyn qızına verilmiş B-093469 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 251 nömrəli tam orta ümumtəhsil məktəbi 2005-ci ildə bitirmiş Səfərova Günel Faiq qızına verilmiş B-191754 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Ləj kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2013-cü ildə bitirmiş Fətullazadə (Əzimzadə) Aytac Asəf qızına verilmiş A-326258 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Viyən kənd tam orta məktəbi 1991-ci ildə bitirmiş Əhədova Sarıtel Zaman qızına verilmiş A-080424 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Saatlı şəhər** 1 nömrəli tam orta ümumtəhsil məktəbi 2010-cu ildə bitirmiş Teymurov Pərviz Cəsur oğluna verilmiş B-728254 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 269 nömrəli tam orta məktəbi 1999-cu ildə bitirmiş Musayeva İnarə Vaqif qızına verilmiş A-293074 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Saatlı şəhər** 1 nömrəli tam orta ümumtəhsil məktəbi 1991-ci ildə bitirmiş Şərəfxanov Ədalət Cavan oğluna verilmiş A-181669 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 132 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Qasımov Emin Vaqif oğluna verilmiş A-406107 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı 1 nömrəli Tibb Məktəbi** (indiki 1 nömrəli Bakı Tibb Kolleci) tərəfindən 1995-ci ildə Hüseyinova Əyyubova Gülnarə Arif qızına verilmiş AB-II-016714 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**İsmayıllı rayon** Cülyan kənd tam orta məktəbi 2005-ci ildə bitirmiş Mazanova (Dadaşova) Ülviyyə Akif qızına verilmiş B-199875 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**1 nömrəli Bakı Baza Tibb Məktəbini** (indiki 1 nömrəli Bakı tibb kolleci) 1974-cü ildə bitirmiş Məmmədova (Manafova) Anaxanım Hacı qızına 1984-cü ildə verilmiş ЖТ-026339 nömrəli dublikat diplom itdiyi üçün etibarsız sayılır.

**Şuşa Humanitar Kolleci** tərəfindən 2024-cü ildə Adıgözəlova Tünzalə Rafiq qızına verilmiş AA-220504 nömrəli subbakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Gədəbəy Peşə Liseyi** tərəfindən 2014-cü ildə Qasımov Mahir Məmməd oğluna verilmiş A-052345 nömrəli diplom və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kolleci** tərəfindən 2013-cü ildə Hüseynova Tərlan (Səmədzadə Sahra) Səməd qızına verilmiş AA-030648 nömrəli subbakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 225 nömrəli tam orta məktəbi 2019-cu ildə bitirmiş Hüseynov Rüfət Rövşən oğluna verilmiş E-201953 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki rayon** Baş Küngüt kənd tam orta məktəbi 2019-cu ildə bitirmiş Məhyəddinov Nəbi Elşən oğluna verilmiş E-222040 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki şəhər** 11 nömrəli tam orta məktəbi 2000-ci ildə bitirmiş Məcidova Günay Arif qızına verilmiş A-476234 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Boladi kənd 2 nömrəli tam orta ümumtəhsil məktəbi 2004-cü ildə bitirmiş Cavadova Nilufər Valeh qızına verilmiş A-064290 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi Pedaqoji Kolleci** tərəfindən 2014-cü ildə Hüseynalızadə Şahverdi Etibar oğluna verilmş AA-044321 nömrəli diplom və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**11 nömrəli Bakı Peşə Liseyi** tərəfindən 2008-ci ildə Məhərrəmov Rasim Heydər oğluna verilmiş BB-041076 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Füzuli rayon** 45 nömrəli tam orta məktəbi (Bakı şəhər 342 nömrəli tam orta ümumtəhsil məktəb) 2017-ci ildə bitirmiş Nəzərli Rəşad Sərvər oğluna verilmiş E-071843 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 19 nömrəli tam orta ümumtəhsil məktəbi 2023-cü ildə bitirmiş Qaracayev Aydın Mübariz oğluna verilmiş E-550199 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Kolleci** tərəfindən 1996-cı ildə Kərimova (İsmayılova) Xalidə Alik qızına verilmiş AB-II-001398 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 1 nömrəli tam orta ümumtəhsil məktəbi 2008-ci ildə bitirmiş Məmmədova Turanə Vüqar qızına verilmiş B-499410 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.